**D İ Q Q Ə T !**

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

***QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 181 (6145) **14 oktyabr** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycan əsgəri yeni tarix yazır!

*Azərbaycan əsgəri yeni tarix yazır. Şəkli təqdim olunan igidimiz əsgər Hünər Məmmədovdur. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, adı kimi özü də hünər və rəşadət örnəyi olan igid əsgərimiz torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə silahdaşları Elvin Mədətov və Rüfət Əsədullayevin köməyi ilə düşmənin 7 tankını...*





*Bax 3*

# Azərbaycan tarix yazır: yolumuz Qarabağadır!

*Bax 8*

*Azərbaycan Prezidenti və Azərbaycan Ordusu 30 ilə yaxın davam edən status-kvonu 10 gündə dəyişdi*




## BBC Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı reportaj yayımlayıb: bu, açıq-aşkar mülki əhalinin hədəfə alınmasıdır











*BBC telekanalı Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Ermənistanla Azərbaycan arasında əldə edilmiş razılaşmanın ilk 24 saatda pozulduğu qeyd edilir. Diqqətə çatdırılır ki, Gəncə şəhərində yaşayış binasına atəş açıldıqdan sonra Azərbaycan Ermənistanın müharibə cinayəti törətdiyini bildirir.*

*Bax 3*



## Mövlud Çavuşoğlu: "Beynəlxalq ictimaiyyət Ermənistandan Azərbaycan torpaqlarından çıxmağı tələb etməlidir"

*Bax 3*

*İsveçin Xarici İşlər naziri Ann Linde Türkiyəyə səfər edib. Ankarada ikitərəfli və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərdən sonra Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu...*

## Milix Yevdayev: "Dünyanın ən multikultural və tolerant ölkəsində yaşamağımızla fəxr edirik"

*"The Times of İsrail" saytında Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayevin...*




*Bax 7*

## Rossiya-24 telekanalı: "Azərbaycan Ermənistana sonuncu şans verib"



*Bax 10*

Rusiyanın ən nüfuzlu telekanallarından olan Rossiya-24 kanalının "Vesti" proqramında Qarabağ problemi və bölgədə baş verən hərbi qarşıdurma ilə bağlı geniş süjet yayımlanıb. "Azərbaycan Ermənistana sonuncu şans verib"...

## "Prezident informasiya cəbhəsində də ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edir"



*Bax 7*

## Gəncə hücumu Ermənistanın anti-insani, faşist simasını ifşa etdi



*Bax 14*

## Paşinyanın önündə şəkil çəkdirdiyi raket kompleksi məhv edilib!



*Bax 11*

# Azərbaycan Prezidenti xarici televiziya kanallarına müsahibələri ilə Ermənistanın yalan üzərində qurulmuş informasiya maşınına ağır zərbə vurub



***Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi.***

2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı bəyan etdi ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib və onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!".

"Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini dəfələrlə bütün dünyaya bəyan edən dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan edib ki, Azərbaycan bundan sonra da öz prinsipial mövqeyindən dönməyəcək.

Bu fikirləri hər zaman beynəlxalq kürsülərdən bəyan edən dövlət başçısı İlham Əliyev sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclası zamanı Qoşulmama Hərəkatının sədri kimi videoformatda çıxışında bir daha dünya ictimaiyyətini Ermənistanın işğalçılıq siyasəti, eləcə də son vaxtlar əsassız iddiaları və beynəlxalq hüquqa zidd addımları haqqında xəbərdar edərək bildirib ki, Ermənistan BMT qarşısında öz öhdəliklərini 30 ilə yaxındır kobud şəkildə pozmuş, Azərbaycana qarşı hərbi güc vasitəsilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir.

1993-cü ildə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması tələb olunsa da, Ermənistanın açıq-aşkar işğalçılıq mövqeyi tutması nəticəsində bu qətnamələr indiyədək yerinə yetirilməyib.

Azərbaycan Prezidenti bildirib ki, Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozmuş və "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbə olmuşdur. Bununla yanaşı, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan edib. Dövlət başçısı bildirib ki, nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Təcavüzkarın ritorika və təxribatlarının davam etməsi ilə Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirdiyini diqqətə çatdıran dövlət başçısı BMT-ni və bütövlükdə beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə çağırış edərək deyib ki, gərginliyin artırılmasına görə məsuliyyət birbaşa Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Bunun ardınca Prezident İlham Əliyev sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı zamanı bir daha dünya birliyinin diqqətinə çatdırıb ki, Ermənistan Beyrutdakı partlayışdan sonra vəziyyətdən sui-istifadə edərək Azərbaycanın işğal olunmuş ərazilərinə erməni əsilli livanlıları yerləşdirməklə qanunsuz məskunlaşdırma siyasəti ilə məşğuldur və bu da 1949-cu ilin Cenevrə Konvensiyası daxil olmaqla, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır, eləcə də müharibə cinayətidir. Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistan müxtəlif ölkələrdən muzdlular və terrorçular cəlb edir, onlardan Azərbaycana qarşı istifadə edir, eləcə də erməni ASALA terror təşkilatının işğal edilmiş Azərbaycan ərazilərində olması ilə bağlı etibarlı məlumatlar var.

Ancaq bütün bu xəbərdarlıqlara beynəlxalq birlik tərəfindən heç bir reaksiya olmadı, Ermənistana qarşı heç bir tədbir görülmədi. Elə bu səbəbdən, cəzasızlıqdan istifadə edərək 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutub. Azərbaycan Ordusu bu hərbi təcavüzə cavab olaraq Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmənin layiqli cavabını verir və xalqımız bütünlüklə Ali Baş Komandanın ətrafında səfərbər olub. Azərbaycan ərazilərinin azad olunması uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra yaşayış məntəqələrimizin işğalçılardan azad edilməsi, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin ələ keçirilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaradıb. Azərbaycan Ordusunun müxtəlif qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində Cəbrayıl şəhəri və bir sıra kəndlərimiz, əlverişli yüksəkliklər və ərazilər azad olunub.

Sentyabrın 29-da "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırarkən Azərbaycan Prezidenti cəbhə bölgəsindəki real vəziyyət barədə ciddi faktları və əsaslandırılmış informasiyaları, konkret mesajları Rusiya, eləcə də dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Ermənistanın baş nazirinin verilişdəki çıxışı isə ənənəvi feyk xarakterli, cəfəng məlumatlar əsasında quruldu.

Bunun davamı olaraq Azərbaycan Prezidentinin son günlər ərzində "Əl-Cəzirə", "Əl-Ərəbiyə" "TRT Haber", "Pervıy Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "RBK", "Haber Global" televiziya kanallarına verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir. Dövlət başçısının son müsahibələri informasiya müharibəsində Azərbaycanın ədalətli mövqelərini əhəmiyyətli dərəcədə gücləndirir, Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində olduqca önəmlidir.

Bununla yanaşı, Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasətini, habelə müharibə cinayətlərinin mahiyyətini açmaqla Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün beynəlxalq kürsülərdən konkret faktlarla təcavüzkarı ifşa edir. Eyni zamanda, Azərbaycan Prezidenti hər zaman hücum diplomatiyasına və milli maraqlara əsaslanan siyasət həyata keçirərək Ermənistanın 30 ildən artıqdır ki, yürütdüyü işğalçılıq siyasəti və bunun bütün region üçün yaratdığı ciddi təhdidləri məntiqi arqumentlərlə dünya ictimaiyyətinin diqqətinə çatdırır.

Dövlət başçısı son vaxtlar dəfələrlə mühüm beynəlxalq platformada Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan edib. Bu baxımdan, dövlətimizin BMT-nin Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququ var və bundan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırarkən deyib: "Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin".

Bu baxımdan, bir sıra aparıcı beynəlxalq KİV-lərə müsahibələrində Prezident İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər Azərbaycanın bu haqlı mübarizəsinə dəstək verən bir sıra ölkələrin, nüfuzlu xadimlərin, beynəlxalq ekspert və siyasətçilərin sayını daha da artırıb, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması prosesini genişləndirərək informasiya müharibəsində də tarixi ədalətin zəfər çalacağını şərtləndirib.

## Azərbaycan əsgəri yeni tarix yazır!





Azərbaycan əsgəri yeni tarix yazır. Şəkli təqdim olunan igidimiz əsgər Hünər Məmmədovdur. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, adı kimi özü də hünər və rəşadət örnəyi olan igid əsgərimiz torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə silahdaşları Elvin Mədətov və Rüfət Əsədullayevin köməyi ilə düşmənin 7 tankını, 1 PDM-ni, silah-sursat dolu 1 avtomobil texnikasını və 2 müşahidə məntəqəsini məhv edib. Düşmənə layiqli cavablar verən igid döyüşçülərimizə eşq olsun!

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Teleqram" kanalı və "Instagram" hesabı açılıb

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Teleqram" kanalı və "Instagram" hesabı açılıb. Bununla əlaqədar Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Vətəndaşları, sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini həmin saxta kanala (https://t.me/azerbaycan_mudafie_nazirliyi) və hesaba (https://www.instagram.com/mudafie.nazirliyi) istinad etməməyə çağırırıq. Bildiririk ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi "Teleqram" kanalı və "Instagram" hesabı bu linklərdədir: https://t.me/Azerbaijan_MOD, https://www.instagram.com/azerbaijan_mod.

## Mövlud Çavuşoğlu: "Beynəlxalq ictimaiyyət Ermənistandan Azərbaycan torpaqlarından çıxmağı tələb etməlidir"



İsveçin Xarici İşlər naziri Ann Linde Türkiyəyə səfər edib. Ankarada ikitərəfli və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərdən sonra Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu və İsveçin Xarici İşlər naziri Ann Linde birgə mətbuat konfransı keçiriblər. AZƏRTAC xəbər verir ki, nazirlər gündəlikdə duran məsələlər, Ermənistanın Azərbaycan hücumları nəticəsində yaranmış hərbi gərginliklə bağlı fikirlərini bildiriblər.

Mövlud Çavuşoğlu deyib ki, beynəlxalq ictimaiyyət atəşkəs çağırışı etməkdən başqa, Ermənistana Azərbaycan torpaqlarından çıxmağı tələb edərsə, o zaman onun həqiqətən də problemi həll etmək arzusunda olduğunu görə bilərik. Ukrayna və Gürcüstanın ərazi bütövlüyü məsələsində çağırışların dəqiq olduğunu, Azərbaycana gəldikdə isə bu məsələyə ikili standartla yanaşıldığını bildirən, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərarlarının icrasının vacibliyini xatırladan nazir Mövlud Çavuşoğlu bildirib: "Ukrayna və Gürcüstanın ərazi bütövlüyü müzakirə mövzusu olanda ATƏT də daxil olmaqla hamımız deyirik ki, Rusiya və başqa qüvvələr oradan geri çəkilsin. Bunlar Ukrayna və Gürcüstanın torpaqlarıdır. Amma eyni çağırışı Qarabağla bağlı etmirik".



## İtaliyalı deputatlar Ermənistanın Gəncəyə raket hücumlarını pisləyiblər

İtaliyalı deputatlar Ermənistanın Azərbaycanın Gəncə şəhərinə raket hücumlarını pisləyiblər. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, İtaliyanın "Liqa" partiyasından senator və deputat, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun sədri, Senatın Xarici əlaqələr komissiyasının üzvü Stefano Lucidi, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədri Rossana Boldi və senator, "İrəli İtaliya" siyasi qrupunun sədr müavini, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədr müavini Maria Rizzotti kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəslə bağlı razılığı kobud şəkildə pozaraq Azərbaycanın müxtəlif yaşayış məntəqələrini çoxsaylı mülki şəxslərin həlak olması və yaralanması ilə nəticələnmiş raket atəşinə tutmasını qəti şəkildə pisləyən bəyanat yayıblar.

Senator Stefano Lucidi bu mövzu ilə bağlı açıqlamasında İtaliya hökumətinin Moskvada əldə olunan atəşkəsin Ermənistan tərəfindən pozulmasını qəti şəkildə pisləməli olduğunu deyib. Senator bu bölgədə sabitliyin təmin olmasının istər əhalinin təhlükəsizliyi, istərsə də İtaliyanın maraqları baxımdan çox vacib olduğunu vurğulayıb.

Senator Maria Rizotti bəyanatında bildirib ki, Azərbaycan hərbi təcavüzə məruz qalmış ölkə olmasına baxmayaraq, beynəlxalq ictimaiyyətin atəşkəslə bağlı çağırışlarını qəbul edib. Son 24 saat ərazində baş verənlər Ermənistanın atəşkəsi kobud şəkildə pozaraq gərginliyi artırmasına növbəti bir sübutdur. Ermənistanın raket hücumları nəticəsində 10 mülki şəxs həlak olub və aralarında azyaşlı uşaqlar da olmaqla 34 nəfər yaralanıb. İtalyan senator qeyd edib ki, Azərbaycan əhalisinə qarşı soyqırımı və müharibə cinayətləri törədən Ermənistan silahlı qüvvələri dərhal dayandırmaq mənəvi öhdəlikdir.

## BBC Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı reportaj yayımlayıb: bu, açıq-aşkar mülki əhalinin hədəfə alınmasıdır













BBC telekanalı Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Ermənistanla Azərbaycan arasında əldə edilmiş razılaşmanın ilk 24 saatda pozulduğu qeyd edilir. Diqqətə çatdırılır ki, Gəncə şəhərində yaşayış binasına atəş açıldıqdan sonra Azərbaycan Ermənistanın müharibə cinayəti törətdiyini bildirir.

Reportajda Ermənistanın raket hücumu nəticəsində dağılmış evlərin, yaxınlarını itirmiş insanların görüntüləri təqdim edilir. BBC-nin hadisə yerində olan müxbiri dağıntıları göstərərək "Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə bu insanların yaşadığı yerlərdən görün geriyə nə qalıb", - deyə qeyd edir. Vurğulanır ki, bu, açıq-aşkar mülki əhalinin hədəfə alınmasıdır. Bu dağılmış binalarda, mənzillərdə insanlar yaşayırdılar. Dağıntılar arasında yataqlar, yorğan-döşək görmək mümkündür. Hücum yerli vaxtla gecə saat 2-də baş verib.

Atəşkəs olmalı idi, lakin bu, əsl müharibənin əlamətləridir. Bəs indi nə olacaq? Atəşkəs artıq bitdimi? Bu suallarla Prezidentin köməkçisi Hikmət Hacıyevə müraciət etdik. Hikmət Hacıyev dedi ki, əgər Ermənistan azərbaycanlı mülki əhaliyə hücumu davam etdirsə, Azərbaycan Ermənistanın hərbi hədəflərinə qarşı lazımi tədbirləri görmək məcburiyyətindədir. "Siz deyirsiniz ki, onlar sizə atəş açıb və sizin buna cavab vermək hüququnuz var. Bunlardan hansı olacaq? Siz atəşkəsə davam edirsiniz, yoxsa bu hücuma cavab verəcəksiniz?" sualına cavabında Prezidentin köməkçisi deyib: "Hazırda biz atəşkəs rejiminə sadiq qalmışıq. Ancaq ermənilər Azərbaycanın mülki əhalisinə hücum etməyə davam eləsələr, dünyadakı bütün dövlətlər kimi, bizim də özünümüdafiə hüququmuz var".

Jurnalist raket hücumu nəticəsində dağılmış evlərdən birinin içərisindən də görüntüləri təqdim edir və dağıntılar arasındakı yorğan-döşəyi göstərərək "evin sakininin nəvələri bu yataqda yatırdılar, xoşbəxtlikdən onlar sağ qala biliblər", - deyir.

# Otto Hauzer: “Azərbaycanda heç bir müsəlman ölkəsi ilə müqayisə olunmayacaq səviyyədə dini tolerantlıq mövcuddur”

***Almaniyanın “Ludwigsburger Kreiszeitung” qəzetində Azərbaycanın bu ölkənin Ştutqart şəhərindəki fəxri konsulu O.Hauzerin “Din heç bir rol oynamamalıdır” sərlövhəli müsahibəsi dərc olunub.***


10./11. OKTOBER 2020 SAMSTAG/SONNTAG | WWW.LKZ.DE — Stuttgart & Südwest 7

BERG-KARABACH-KONFLIKT

Die Religion soll keine Rolle spielen

OTTO HAUSER
Honorarkonsul Aserbaidschans in Stuttgart

**Im Konflikt um Berg-Karabach prallen zwei grundlegende Interessen aufeinander, das Recht Aserbaidschans auf territoriale Integrität und das Selbstbestimmungsrecht der Menschen in Berg-Karabach. Wie könnte der Konflikt langfristig beigelegt werden?**

OTTO HAUSER: Der Konflikt kann schnell beendet werden, indem Armenien die sieben besetzten Regionen und Berg-Karabach an Aserbaidschan zurückgibt. In vier UN-Sicherheitsratsresolutionen wurde schon 1993 Armenien aufgefordert, die völkerrechtswidrige militärische Besetzung der aserbaidschanischen Gebiete zu beenden und den Hunderttausenden aserbaidschanischen Flüchtlingen, die von den Armeniern vertrieben wurden, die Heimkehr zu ermöglichen.

**Inwieweit halten Sie die Angst der Armenier vor einem zweiten Völkermord für berechtigt?**

Armenier müssen weder Angst vor Vertreibung noch vor einem Völkermord haben. Ganz im Gegensatz zum Verhalten der Armenier, die 1992 eine Million Aserbaidschaner vertrieben haben und in der Stadt Chodschali ein fürchterliches Massaker an mehr als 600 Zivilisten verübten.

**Welche Informationen haben Sie zum Einsatz international verbotener Waffen durch Aserbaidschan und die verbündete Türkei?**

Es liegen keine Anhaltspunkte oder Beweise über türkisches Militär auf aserbaidschanischer Seite vor. Diese Woche wurden von Armenien Streubomben gegen zivile Ziele in Gandscha eingesetzt.

AZƏRTAC xəbər verir ki, müsahibədə Ermənistanın işğal etdiyi Dağlıq Qarabağı və ətraf rayonları Azərbaycana qaytaracağı təqdirdə Dağlıq Qarabağ münaqişəsinə tezliklə son qoyula biləcəyi qeyd olunur. Bildirilir ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistandan Azərbaycan torpaqlarının qanunsuz hərbi işğalına son qoymaq, eləcə də ermənilər tərəfindən deportasiya olunmuş yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün öz evlərinə qayıtmalarına imkan yaratmaq tələb olunur. Azərbaycan öz ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağa dəfələrlə muxtariyyət təklif edib. Dünya ictimaiyyəti, o cümlədən Almaniya işğal olunmuş əraziləri Azərbaycanın suveren ərazisi kimi tanıyır.

O.Hauzer diqqətə çatdırıb ki, 1918-ci ildə Cənubi Qafqazda 3 respublika təsis olunub və o vaxt Dağlıq Qarabağ Ermənistanın deyil, Yelizavetpol quberniyasının (indiki Gəncə) tərkibində olub. BMT, onun üzvləri, eləcə də Almaniya Dağlıq Qarabağ da daxil olmaqla Sovet Azərbaycanının sərhədlərini tanıyıb. Münaqişə yalnız Dağlıq Qarabağla bağlı deyil. Belə ki, Ermənistan, Dağlıq Qarabağın inzibati ərazisinə daxil olmayan 7 ətraf rayonu da işğal altında saxlayır.

Fəxri konsul bildirir ki, ermənilər köçürülmədən və “soyqırımı”dan qorxmamalıdırlar. Çünki onlar 1992-ci ildə 1 milyondan çox azərbaycanlını yurd-yuvalarından didərgin salıb, Xocalıda 600-dən çox mülki şəxsi qətlə yetiriblər.

Hazırkı müharibədə Azərbaycan tərəfində guya muzdluların və türk əsgərlərinin vuruşması ilə bağlı məsələyə münasibət bildirən O.Hauzer deyib ki, bununla bağlı heç bir fakt mövcud deyil. Ermənilər Azərbaycanla sərhəddən çox uzaqda yerləşən Gəncə şəhərində mülki əhaliyə qarşı kasetli bombalardan istifadə ediblər və bu, Cenevrə Konvensiyasına ziddir.

Müsəlman Azərbaycan ilə xristian Ermənistanın müqayisə olunmasının tamamilə səhv təəssürat yaratdığını qeyd edən fəxri konsul deyib: “Azərbaycanda heç bir digər müsəlman ölkə ilə müqayisə olunmayacaq səviyyədə dini tolerantlıq mövcuddur. Azərbaycanda pravoslav və katolik xristianlar, o cümlədən yəhudilər sülh şəraitində yaşayırlar. Hökumət dini icmaları maliyyələşdirir və onlara ibadət etmək üçün hər cür şərait yaradıb. Bu xüsusda, belə bir nəticənin çıxarılması tamamilə səhvdir”.

# Dünyanın bir sıra ölkələrinin siyasi partiyaları və parlament üzvləri Azərbaycana dəstək bəyanatları yayıblar

***Dünyanın bir sıra ölkələrinin siyasi partiyaları, parlament üzvləri və beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə ediblər.***



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, bu günlərdə dünyanın bir sıra ölkələrinin parlamentlərində təmsil olunan siyasi partiyalar, parlament üzvləri və beynəlxalq parlament təşkilatlarının nümayəndələri Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlarla bağlı bəyanatlarla çıxış ediblər.

Türkiyə Böyük Millət Məclisində təmsil olunan Ədalət və İnkişaf Partiyası (AKP), Cümhuriyyət Xalq Partiyası (CHP), Milliyyətçi Hərəkat Partiyası (CHP), İyi Partiyası (İP), İtaliyanın “5 ulduz Hərəkatı” partiyasından senatorlar Vito Petroçelli, Canluka Ferra, İtaliyanın “Liqa” partiyasından senator Stefano Lucidi və deputat Rossana Boldi, “İrəli İtaliya” siyasi qrupunun sədr müavini, senator Maria Rizzotti, “Yaşasın İtaliya” partiyasının üzvü, senator Mauro Marino Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancrani, Hollandiyanın DENK partiyasının sədri Tunahan Kuzu, Bosniya və Herseqovinanın Demokratik Hərəkat Partiyasının sədri Bakir İzetbekoviç və sədr müavini Şefik Djaferoviç, İsrailin “Yisrael Beiteinu” partiyasının sədri Aviqdor Liberman, Almaniya Bundestaqının Solçular fraksiyasının üzvü Helin Evrim Sommer, Almaniya Bundestaqının hakim Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının deputatları Nikolas Löbel, Eberhard Qinqer, Ukrayna Ali Radasının sədrinin birinci müavini Ruslan Stefançuk və deputatlar Vladimir Kreydenko, Lyudmila Marçenko, Hollandiya parlamentinin deputatı Joram van Klavere, Almaniya Bundestaqının deputatı Barbara Hendriks, Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Sven Sester, İndoneziya parlamentində Milli Oyanış Partiyası fraksiyasının nümayəndəsi Anqqia Erma Rini, İran parlamentinin Urmiyadan nümayəndəsi Ruhullah Həzrətpur, Britaniya-Azərbaycan Parlament Qrupunun sədri Bob Bləkmən, Malayziya parlamentinin Nümayəndələr Palatasında Malayziya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Datuk Rozman Bin Datuk Haji İsli, Kolumbiya Senatının Xarici əlaqələr daimi komissiyası və Kolumbiya-Azərbaycan dostluq qrupu, Latviya Seyminin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Romans Naudinş, Latviya Seyminin deputatı Aleksandr Kirşteyns, Moldova parlamentinin deputatları Serjiu Sırbu və Dimitru Diacov, Çili Nümayəndələr Palatasının üzvləri, Əfqanıstan Milli Şurasının Yuxarı və Aşağı Palataları, Xorvatiya parlamentinin deputatı Veljko Kajtazi, AŞPA-nın vitse-prezidenti Oleksandr Merejko, Avropa Parlamentinin deputatları Sandra Kalniete, Marton Gyöngyösi, Andris Ameriks, Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Məcidi, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Muhammed Xurayçi Niyas Azərbaycana dəstək bəyanatları yayıblar. Bu bəyanatlarda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunur, həmçinin Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi təcavüz və təxribatlar pislənilir.

# XİN: “Ermənistan tərəfindən Azərbaycana qarşı növbəti hücum gərginliyin artırılması üçün həyata keçirilən dağıdıcı siyasətin növbəti təzahürüdür”

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti departamenti Ermənistan xarici işlər nazirinin Moskvadakı brifinq zamanı verdiyi açıqlamanı şərh edib.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti departamentindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyanın Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində verdiyi açıqlamada ənənəvi olaraq həqiqətə uyğun olmayan bir sıra məqamlar əksini tapır. Bu məqamlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyəti yanlış təqdim etmək və beləliklə, beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədini güdür.



Bununla əlaqədar olaraq Azərbaycan XİN-i xatırladır ki, Ermənistanın hazırkı siyasi-hərbi rəhbərliyi son 2 ildə münaqişə ətrafında vəziyyəti gərginləşdirmək üçün məqsədyönlü şəkildə addımlar atır. Bu addımlar danışıqlar prosesinə ciddi xələl gətirən və onu çıxılmaz vəziyyətə salan təxribat xarakterli bəyanatlardan və digər tədbirlərdən ibarətdir. Onların arasında Ermənistanın Azərbaycana qarşı təcavüzünün qanunsuz nəticələrini və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin davamlı hərbi işğalını möhkəmləndirmək üçün çoxsaylı praktik addımlar yer alır. Bunun ən bariz nümunələri “Qarabağ Ermənistandır, nöqtə” ifadəsi, “yeni ərazilər üçün yeni müharibə” hərbi konsepsiyası, 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində hərbi təxribat, işğal olunmuş ərazilərdə Livan ermənilərinin məskunlaşdırılması fəaliyyətidir.

Ermənistanın silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycana qarşı növbəti hücum gərginliyin artırılması üçün həyata keçirilən dağıdıcı siyasətin növbəti təzahürüdür. Suveren dövlət olaraq Azərbaycan Respublikası BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən, özünümüdafiə hüququ çərçivəsində müvafiq addımlar atıb. Nəticədə bir sıra Azərbaycan əraziləri Ermənistanın işğalından azad edilib. Təəssüf ki, erməni tərəfi ənənəvi olaraq terror taktikasına əl ataraq münaqişə zonasından uzaq məsafədə yerləşən məntəqələr və insanlar də daxil olmaqla, Azərbaycanın dinc əhalisini və mülki infrastrukturunu intensiv atəşə tutur. Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində 42 azərbaycanlı mülki şəxs həlak olub və 206 nəfər yaralanıb, 1479 ev, 66 çoxmənzilli yaşayış binası və 241 infrastruktur obyekti dağıdılıb.

Xoşməramlı niyyətini nümayiş etdirən Azərbaycan tərəfi Rusiya Federasiyasının müraciətlərinə müsbət reaksiya göstərdi, 3 nazirin Moskva görüşünə qatıldı və orada konstruktiv şəkildə danışıqlar apardı. Azərbaycan tərəfi iclasda razılaşdırılmış humanitar atəşkəsə sadiqliyini elan etdi və silahlı qüvvələrinə müvafiq təlimat verdi.

Lakin Ermənistan tərəfi çox fərqli bir yol seçdi. Onun silahlı qüvvələri Azərbaycanın Tərtər rayonu, Suqovuşan ərazisi yaxınlığında erməni hərbçilərinin cəsədlərini toplayan Azərbaycan hakim qrupuna minaatandan atəş açdı. Nəticədə Azərbaycan bir tibb işçisi ağır yaralandı. Bundan əlavə, oktyabrın 11-i gecə saat 2-də Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raket atdı. Raket çoxmərtəbəli yaşayış binasını yerlə-yeksan etdi, 10 mülki şəxs həyatını itirdi və uşaqlar da daxil olmaqla çox sayda xəsarət alanlar oldu.

Ermənistanın Moskva görüşündən sonrakı diplomatik hərəkətləri də göz qarşısındadır. Moskva görüşünün yekun bəyanatı mövcud danışıqlar formatına sadiqliyi bir daha təsdiqləyir və təməl prinsiplər əsasında mahiyyət üzrə danışıqların başlanılmasını ehtiva edir. Azərbaycan tərəfi ən qısa zamanda danışıqlara başlamağa hazır olduğunu bəyan etdi. Ermənistan tərəfi öz növbəsində dərhal Moskva görüşünün bəyanatını birtərəfli və qeyri-dəqiq təfsir edən, öz müqəddəratını təyinetmə və Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı qanunsuz rejimin tanınması şüarlarını əks etdirən bəyanatlar verməyə başladı.

Azərbaycan tərəfi beynəlxalq hüququn norma və prinsiplərinin, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in qərarlarının, eləcə də Moskva görüşünün bəyanatının müddəalarını pozduğu üçün bu cür yanaşmanı tamamilə qeyri-konstruktiv hesab edir.

# Prezidentə yazırlar: Ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda atdığınız məğrur və müdrik addımları alqışlayırıq

***Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin və digər ölkələrin vətəndaşlarından Prezident İlham Əliyevə məktublar gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

Türkiyənin Antalya şəhərindən Hasan Demirtaş yazır: "Hörmətli cənab Prezident, vəzifəmin icrası ilə əlaqədar 3 il Azərbaycanda yaşamışam. İki qardaş ölkənin iqtisadiyyatı, məhsulu və xidmət keyfiyyətinin digər ölkələrlə rəqabət etməsi və üstün olması üçün çox çalışmışam. Bu müddət ərzində Azərbaycanla bağlı çoxlu xoş xatirələrim var, eyni zamanda, sadiq dostlar da qazanmışam. Bu gün biz işğalçı Ermənistanla haqlı mübarizədə Sizin və bütün Azərbaycan xalqının yanındayıq. Lazım gələrsə verəcəyiniz hər bir tapşırığa da hazır olduğumu bildirirəm. Arzum Azərbaycana növbəti səfərimdə Qarabağda dalğalanan üçrəngli şanlı bayrağımızın kölgəsi altında durmaqdır. Sizə, komandanıza, Azərbaycanın igid əsgərinə və bütün azərbaycanlı qardaşlarıma ehtiramımı bildirirəm".

Türkiyənin Kocaeli şəhərindən Birol Özer: "Hörmətli Prezidentimiz İlham Əliyev, mən Türkiyədə, Kocaeli şəhərində yaşayıram. Burak adlı bir oğlum var. Mən və oğlum hər zaman erməni işğalına qarşı Sizin və bütün Azərbaycanın yanındayıq. Azərbaycan dost və qardaş ölkədir. Biz iki dövlət, bir millətik. Sizin dostunuz bizim dostumuz, düşməniniz düşmənimizdir. Buna görə Sizin sıralarınızda olmaq bizim üçün şərəfdir. Bizlər üçün şəhadət ən böyük mükafatdır. Azərbaycanlı qardaşlarımızla çiyinçiyinə dayanmaq üçün Sizin əmrinizi gözləyirik. Allaha əmanət olun. Rəbbimiz yar və yardımçınız olsun!".

Misirin paytaxtı Qahirədən Seymur Nəsirov yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Azərbaycan Ordusunun qələbələri münasibətilə Sizi və xalqımızı ürəkdən təbrik edirik. İşğalçı Ermənistana qarşı həyata keçirdiyiniz ədalət müharibəsində Sizi tam dəstəklədiyimizi bildiririk. Biz harada yaşamağımızdan asılı olmayaraq hər zaman Vətənə bağlıyıq, Sizin müdrik rəhbərliyinizlə doğma Azərbaycanımızda baş verən hadisələri diqqətlə izləyirik. Bir vətəndaş kimi bütün qüvvələrimizi səfərbər etmişik. İnformasiya müharibəsində aktiv iştirak edirik. Misir ictimaiyyətinin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılması istiqamətində səylərimizi əsirgəmirik. Vətənimiz qarşısında müqəddəs borcumuzu yerinə yetirməyə hər an hazırıq. Sizin və şanlı ordumuzun yanındayıq. İnanırıq ki, Sizin komandanlığınızla tezliklə Azərbaycan Ordusu tarixi ədaləti bərpa edəcək və Vətənimizin ərazi bütövlüyü təmin olunacaq. Bu şanlı yolda Uca Allah yardımçınız olsun. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

İordaniyanın Əmman şəhərindən Eyhəm Əbu Annəb, Təhsin əl-Muflih və Ziyad əl-Xarabşeh yazırlar: "Möhtərəm cənab Prezident, biz İordaniya Azərbaycan Məzunları Klubunun İdarə heyətinin üzvləri olaraq, Zati-alinizi salamlamaqdan, Sizə və qardaş Azərbaycan xalqına möhkəm cansağlığı arzulamaqdan şərəf hissi duyuruq. Eyni zamanda, Zati-aliniz vasitəsilə böyük Azərbaycan xalqına daha çox sabitlik, tərəqqi və firavanlıq diləməkdən sevinc hissi keçiririk. Hazırkı məktub haqq işinizə inamımızdan irəli gəlir. Rəşadətli Azərbaycan Silahlı Qüvvələri təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi məqsədilə hərbi əməliyyatlar həyata keçirir. Şübhəsiz ki, Ermənistan Azərbaycanın tarixi torpaqlarının 20 faizini işğal edib, bununla da beynəlxalq hüququn prinsip və normalarını pozub, BMT-nin 822, 853, 874 və 884 saylı qərarlarına məhəl qoymamağa davam etməkdədir. Beynəlxalq birlik həmin qərarlar vasitəsilə işğalçı qüvvələrin işğal olunmuş bütün Azərbaycan torpaqlarından tam çıxmasını tələb edir. Biz Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərini dəstəklədiyimizi Zati-alinizə təsdiqləmək istəyirik. Bizim üçün əziz və dəyərli Azərbaycan Respublikasının Sizin müdrik rəhbərliyinizlə 30 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində danışıqları davam etdirdiyini görürük. Lakin hazırkı Ermənistan rəhbərliyinin qeyri-konstruktiv və sülh əleyhinə mövqeyi səbəbindən danışıqlar istənilən nəticəyə gəlib çıxmayıb. Zatialiləri, biz çox yaxşı bilirik ki, erməni təcavüzkarları işğal olunmuş Azərbaycan ərazilərində mövcud infrastruktura böyük zərər yetirmiş, Xocalı soyqırımı kimi qətliamı törətmiş, Azərbaycan xalqına məxsus tarixi abidələri dağıtmış və oradakı məscidləri donuz və mal-qara tövlələrinə çevirmişlər. Bu da bütün İslam dünyası üçün təhqirdir. Yekunda cəsarətli Azərbaycan Silahlı Qüvvələrinin Sizin rəhbərliyinizlə və Sizin əzmkarlığınızdan ilham alaraq, Cənubi Qafqaz regionunda sülh naminə işğal olunmuş Azərbaycan torpaqlarını və oradakı insanları azad etmək, eləcə də ölkənin beynəlxalq tanınmış sərhədləri daxilində əmin-amanlıq və sabitlik yaratmaq kimi müqəddəs vəzifəni yerinə yetirməkdə uğur qazanacağına əminliyimizi ifadə edirik. Zati-aliləri, Sizin işiniz haqq işidir, inşallah, zəfər Sizin olacaqdır. Uca və Qüdrətli Allahdan Zati-alinizi, Azərbaycan Respublikasını və qardaş Azərbaycan xalqını qorumağı rica edirik".

Ukraynadan Zakir Cabbarov yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin Azərbaycan üçün etdikləriniz sayəsində xalqımız bütün dünyada başını uca tutur. Allah da daim Sizi uca etsin. Siz gecə-gündüz xalqa xidmət edirsiniz. Gün o gün olsun ki, Sizi Kəlbəcərdə öz evimizdə qonaq edək. Heç olmasa, biz də bir günlük Sizin qulluğunuzda duraq. Bütün işlərinizdə Allah Sizin köməyiniz olsun. Allah Sizi qorusun, inşallah".

İmişli rayonunun sakini Nicat Rüstəmov yazır: "Cənab Ali Baş Komandanımız, Mənim yaşım az olduğuna görə hələlik cəbhəyə yollana bilmirəm. Amma bütün qərarlarınızı ürəkdən dəstəkləyirəm. Əminəm ki, tezliklə işğal altında olan torpaqlarımızı düşməndən azad edəcək, həmçinin Azərbaycanın siyasi mövqeyini möhkəmləndirəcəksiniz. Mən də Sizə söz verirəm ki, igid əsgər kimi daim Vətənimi şərəflə qoruyacaq, onun adını uca tutmaq üçün layiqli, savadlı övlad olacağam".

Şəmkirdən Xəlil İsgəndərov: "Əziz və hörmətli Prezidentimiz, Siz ulu öndər Heydər Əliyev siyasətinin davamçısı olmaqla müstəqil Azərbaycanımızın sürətli inkişafına və dünya miqyasında tanınmasına nail olmusunuz. Sizin rəhbərliyinizlə Azərbaycan müasir inkişafın zirvəsinə yüksəlmişdir, dünya birliyində özünə layiqli yer tutmuşdur. Mən onu deyə bilərəm ki, Azərbaycan Respublikası heç vaxt indiki kimi güclü olmamışdır. İndi bizim güclü ordumuz və müasir silahlarımız var, həmin ordunun gücü ilə erməni təcavüzkarları tərəfindən işğal edilmiş torpaqlarımızı azad edə bilərik. Sizin göstərişinizlə biz Azərbaycan xalqı olaraq hər zaman hər şeyə hazırıq. Mən Sizin daxili və xarici siyasətinizi həmişə dəstəkləyirəm, qələbə bizimlədir. Arzu edirəm ki, müharibə tezliklə qurtarsın, köçkünlərimiz doğma yurd-yuvalarına qayıtsın. Xalq Sizi Azərbaycanın Milli Qəhrəmanı adına layiq görür. Mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. Allah Sizi, əsgərlərimizi və Azərbaycan xalqını qorusun. Vətən uğrunda canından keçən şəhidlərimizə Allah rəhmət eləsin. Nə yaxşı ki, Sizin kimi Prezidentimiz və ordumuzun igid, cəsur əsgərləri var. Şəhidlərimizin qanı heç vaxt yerdə qalmayacaq, qisası alınacaq! Bu şüar daim səslənəcək: İlhamla daim irəli! Qarabağ Azərbaycandır!".

Şəki sakini Könül Qasımova: "Hörmətli cənab Prezident, son zamanlar qazandığımız bütün uğurlu əməliyyatlara, aldığımız bütün şad xəbərlərə görə Sizə və güclü, rəşadətli ordumuza təşəkkür edirəm və bu haqq yolunda daha böyük uğurlar arzulayıram. Biz həmişə Sizin arxanızdayıq, Sizinləyik. İnanırıq ki, Azərbaycan Ordusu tezliklə böyük zəfər çalacaq".

Salyan rayon sakini Tahir Gülnəzərov: "Cənab Ali Baş Komandan, çoxdan bəri gözlədiyimiz "İrəli!" əmrini verdiyiniz üçün Sizə minnətdarıq. Çünki bu əmrə əsasən düşmən təxribatına layiqli cavabı verilir. Torpaqlarımız işğaldan tədricən azad olunur. Bu savaş naminə hər birimiz müsəlləh əsgər kimi Sizin əmrinizə müntəzirik. Biz Ordumuzla fəxr edirik və inanırıq ki, Sizin komandanlığınızla torpaqlarımız işğaldan tezliklə azad ediləcək. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

Salyan sakini Əliağa Yunusov: "Hörmətli cənab Prezident, artıq 30 ildir ki, xalqımızın gözlədiyi gün Sizin qətiyyətli mövqeyiniz, siyasi bacarığınız və cəsarətli addımlarınız hesabına gəlib çatmışdır. Sizin uğurlu daxili və xarici siyasətiniz güclü Azərbaycan Ordusunun formalaşmasını və nüfuzunun artmasını təmin etmişdir. Aşağı Muğan Meliorativ Sistemlərin İstismarı İdarəsinin kollektivi Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin başladığı uğurlu əks-hücum əməliyyatını dəstəkləyir, Ordumuzun uğurlarını hər bir azərbaycanlı kimi biz də sevinc və qürur hissi ilə alqışlayırıq. Yaşasın Ali Baş Komandanımız və rəşadətli Ordumuz!".

Qazax rayon sakini Vələd Məmmədov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi öz adımdan, Qarabağ döyüşlərində iştirak etmiş veteranlar adından, çalışdığım Qazax rayon suvarma sistemlərinin çoxsaylı işçiləri adından, yaşadığım Kosalar kəndinin ağsaqqalları adından salamlayır, Sizə uzun ömür, cansağlığı və bu böyük, şərəfli işinizdə nailiyyətlər arzulayırıq. Allah Sizə yar olsun. Biz Sizin haqq işinizi həmişə dəstəkləyir və bəyənirik. Apardığınız daxili və xarici siyasəti ürəkdən alqışlayırıq. Yaxşı ki, varsınız. İnanırıq ki, Sizin komandanlığınız altında mətin ordumuz tezliklə qələbə çalacaq, erməni faşistləri tərəfindən zəbt olunmuş torpaqlarımız qısa müddət ərzində azad olunacaq və üçrəngli bayrağımız iftixarla doğma Qarabağda dalğalanacaq. Hamımız səbirsizliklə o günü gözləyirik. Torpaqlarımızın azadlığı uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Hörmətli Prezident, ürəyimiz xoş arzularla doludur, sadalamaqla bitməz. Siz Qarabağ Qələbəsi ilə öz adınızı tarixə qızıl hərflərlə həkk etmiş olacaqsınız. Allah Sizə və müzəffər Ordumuza yar olsun!".

Gəncə şəhər sakini Ramiz Məhərrəmov: "Möhtərəm cənab Prezident, son günlər Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatı və hərbi əməliyyatları pisləyir, Sizin əmrinizlə düşmənə qarşı keçirilən əks-hücum əməliyyatlarını dəstəkləyirik. Bir Qarabağ müharibəsi veteranı kimi hər çıxışınızı diqqətlə dinləyib Sizinlə fəxr edirik. Bütün veteranlar siyasətinizi dəstəkləyir, Sizə inanırlar. İnanırıq ki, komandanlığınızla rəşadətli əsgərlərimizin döyüşlərdə qazandığı uğurlar böyük qələbə ilə nəticələnəcək və üçrəngli bayrağımız işğal altından azad edilmiş bütün torpaqlarımızda dalğalanacaq. Allah Sizi, ailənizi və Ordumuzu qorusun! Biz həmişə yanınızdayıq! Fəxr edirik ki, Sizin kimi Prezidentimiz, Ali Baş Komandanımız var!".

Tovuz rayonunun sakini Ədalət Abdullayev: "Hörmətli cənab Ali Baş Komandan, son günlər Sizin rəhbərliyinizlə Azərbaycan Ordusunun cəbhə bölgəsində torpaqlarımızın azad olunması uğrunda göstərdiyi şücaətlər bütöv Azərbaycan xalqı olaraq bizləri hədsiz sevindirir və qürurlandırır. Ermənilərin törətdiyi təxribata qarşı şanlı ordumuza əks-hücum əməliyyatlarına başlamaq əmri verməyiniz bizim uzun illərdir ki, qəlbimizdə bəslədiyimiz arzularımızın gerçəkləşməsinə səbəb oldu. Sizin böyük siyasi iradə göstərib torpaqlarımızın erməni faşizmindən azad olunmasında və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda atdığınız məğrur və müdrik addımlarınızı alqışlayaraq, Siz başda olmaqla xalqımıza yeni-yeni uğurlar arzulayırıq".

İsmayıllı rayonunun sakini Şəhriyar Maxsudov: "Cənab Ali Baş Komandan, mən ehtiyatda olan əsgər kimi hər zaman Vətənimizin bütövlüyü uğrunda qəhrəmancasına döyüşməyə hazıram. Erməni silahlı qüvvələrinin ölkəmizə qarşı təxribatına cavab olaraq əks-hücuma keçən ordumuzun cəbhədəki uğurları məni də ruhlandırır və igid əsgərlərimizlə birlikdə olmağa sövq edir. Hörmətli Prezident, fəxr edirəm ki, Sizin kimi rəhbərimiz var. Sizin qətiyyətli, ardıcıl və uğurlu siyasətiniz nəticəsində uğur qazanacağımıza inanıram. İnşallah, tezliklə bütün Azərbaycana qələbə xəbəri verəcəyinizə ümid edirəm. Yaşasın Azərbaycanın Ali Baş Komandanı! Qarabağ Azərbaycandır!".



# Dünya mətbuatı erməni vandalizmindən yazır!

## Fransa portalı yerli mətbuatın Azərbaycan qarşı qərəzli mövqeyindən yazır

***Kim haqlıdır, kim səhvdir? Şənbə günü çətinliklə imzalanan atəşkəsdən sonra eşidilən mərmi səsləri belə bir sual doğurur : "Atəşkəsi əvvəl kim pozdu?". Təcavüzkar kimdir, qurban kimdir? Qurbanları tanıyırıq: evlərini, yaxınlarını və ya həyatını itirənlər. Həmişəki kimi, məsum insanlar. Ancaq ictimaiyyət günahkarın müəyyən edilməsini istəyir və media buna cavab vermək üçündür. Faktlar olduğu kimi verilmir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər olduğu kimi təqdim olunmur. Xarici mediada bu hadisələr geniş şəkildə işıqlandırılsa da (BBC birbaşa video), Fransada faktların olduğu kimi təqdim edilməsinin niyə bu qədər çətin olduğunu bilirik. Çünki bu mövzu ilə bağlı məlumat vermək üçün hətta azacıq səy göstərən jurnalist Azərbaycanın təbliğində ittiham edilir, ölümlə hədələnir, hətta sosial şəbəkələr vasitəsilə təhdid olunur.***







AZƏRTAC xəbər verir ki, bu fikirlər "Musulmans en France" portalında dərc olunmuş "Azərbaycan-Ermənistan: media müharibəsi" adlı məqalədə əskini tapıb. Məqalədə Fransa mediasının birtərəfli məlumat yaymasından bəhs edilir, televiziya kanallarına əsasən erməni mənşəli jurnalistlərin və məmurların dəvət olunduğu diqqətə çatdırılır. Azərbaycan tərəfinin fikirlərinin isə səsləndirilmədiyi vurğulanır. Qeyd olunur ki, Fransada ictimai fikir 50 ildir erməni







məsələsi ilə məşğul edilib.

Azərbaycanla bağlı reallıqlar, Qafqaz həqiqətləri jurnalistlər tərəfindən obyektiv şəkildə təqdim olunmur. Kimin haqlı, kimin səhv olması jurnalistin işi deyil. Jurnalist üçün faktlar vacibdir. Hadisələrlə bağlı fikir yürüdülməsi isə jurnalistin işi deyil, fikir bildirmək oxucuların ixtiyarına buraxılmalıdır.

## İndoneziya saytı: Ermənistan beynəlxalq hüququ pozur

Ermənistan beynəlxalq hüququ pozur və bu müharibə yalnız iki ölkəyə deyil, bütünlükdə regiona böyük zərər vuracaq. AZƏRTAC xəbər verir ki, bu fikirlər İndoneziyanın Miraj İnformasiya Agentliyinin oktyabrın 13-də yaydığı məqalədə yer alıb. "Ermənistan-Azərbaycan münaqişəsi: Ermənistan beynəlxalq hüququ pozur" sərlövhəli məqalənin müəllifi Siyasət, Biznes və Beynəlxalq Araşdırmalar Mərkəzinin icraçı direktoru Yasmi Adriansyahdır. Məqalədə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı narahatlığını ifadə edən müəllif İndoneziya hökumətinin iki ölkənin rəhbərlərinə atəşkəsi bərpa etməyə dair çağırış etməsinin zəruriliyini bildirib.

Yazıda Ermənistanın sentyabrın 27-dən Azərbaycana qarşı yenidən təxribat törətdiyi, Azərbaycan Ordusunun mövqelərinə, mülki şəxslərə və müxtəlif sosial obyektlərə atəş açmaqda davam etdiyi qeyd olunur. İndoneziya və Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvləri olduqlarını xatırladan Y.Adriansyah Cakartanın Bakıya mənəvi dəstək verə biləcəyini vurğulayıb. Deyib ki, bu dəstək Dağlıq Qarabağ bölgəsinə qanunsuz nəzarət edən Ermənistanın təcavüzü ilə üzləşmiş Azərbaycanla bağlı narahatlığımızdan irəli gəlir.

Müəllif qeyd edib ki, COVID-19 pandemiyasının davam etdiyi bir vaxtda dünya Ermənistanın işğalçılıq siyasəti səbəbindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində qanlı müharibənin şahididir. Y.Adriansyah vurğulayıb ki, iki ölkə arasında humanitar atəşkəs elan olunmasına baxmayaraq, Ermənistan Azərbaycan şəhərlərini raket atəşinə məruz qoyur.

## İsveç qəzeti: Ermənistan öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmalıdır

İsveçin "Aftonbladet" qəzetində İsveçin Gənc Azərbaycanlıları təşkilatının (SUAZ) Dağlıq Qarabağ münaqişəsi barədə məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə SUAZ-ın sədri Mahirə Muxtarova daha əvvəl İsveç mediasında yayılan və faktlara əsaslanmayan məlumat və məqalələrə etiraz edərək yazır: "Dağlıq Qarabağ münaqişəsi haqqında danışarkən, ilk növbədə, indiki döyüşlərin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində getdiyi qeyd olunmalıdır. Nəzərə almaq lazımdır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə əsasən, Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərdən dərhal çıxarmalıdır".

Məqalədə Ermənistanın Azərbaycan neftini Avropaya nəql edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinə zərbə vurmaq üçün iyulda münaqişə zonasından uzaqda yerləşən rayona hücum etdiyi xatırladılır. Qeyd edilir ki, bu hücum regionda gərginliyin artmasına səbəb olub. Bu və digər təxribatçı addımların sentyabrın sonlarında genişmiqyaslı hərbi əməliyyatlarla nəticələndiyini qeyd edən diaspor fəallı Azərbaycanın bununla başlanan haqq mübarizəsinin ölkədəki bütün siyasi partiyalar tərəfindən dəstəkləndiyini vurğulayıb. Xarici qüvvələrin və döyüşçülərin münaqişədə istifadə olunması haqqında iftiraların da faktlara əsaslanmadığının xüsusi qeyd olunduğu məqalədə deyilir: "Əlbəttə, Türkiyə Azərbaycanın milli mübarizəsini dəstəkləyir, amma hazırda əməliyyatlarda bir nəfər də olsun türk əsgəri iştirak etmir. Suriyalı muzdluların istifadəsi isə tamamilə erməni təbliğatının məhsuludur və buna dair heç bir dəlil təqdim edilməyib".

Lakin müxtəlif ölkələrin vətəndaşlarının Ermənistan tərəfindən döyüşlərdə iştirakı haqqında əyani dəlillərin olmasına baxmayaraq, bu barədə dünya KİV-lərinin obyektivlik göstərməməsi təəssüf hissi ilə vurğulanıb.

Baş verən münaqişənin kökündə 1990-cı illərdə Ermənistanın Azərbaycan ərazilərini zəbt etməsi və orada yaşayan bütün azərbaycanlıların doğma yurdlarından qovulmasının dayandığı bildirilir. Diqqətə çatdırılır ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Dağlıq Qarabağla bitmir, onun ətrafındakı 7 rayon da zəbt edilib. Bu rayonlardan biri olan Kəlbəcərdən məcburi köçkün düşmüş Mahirə Muxtarova, həmçinin yazır: "Artıq 27 ildir ki, doğma şəhərimi yenidən görmək arzusundayam. Oradan qovulan insanlar arasında azərbaycanlılarla yanaşı, kürdlər və digər millətlərin nümayəndələri də var idi. Ümumilikdə, münaqişə nəticəsində 1 milyondan çox insan öz yurd-yuvasından didərgin salınıb. İndi Azərbaycan qaçqınları öz evlərinə qayıtmaq istəyirlər".

## Avstraliya saytı Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Gəncəyə səfəri barədə məqalə yayıb

Avstraliyada fəaliyyət göstərən Avstraliya-Azərbaycan-Türkiyə Dostluğu Cəmiyyətinin saytı Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Gəncəyə səfəri barədə məqalə yayıb. AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan ordusunun Gəncə şəhərinə raket hücumu və dinc sakinləri qətlə yetirməsindən sonra təşkil edilən səfərdə Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri iştirak etməsi əksini tapıb.

Qeyd olunub ki, əcnəbi diplomatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və başqaları müşayiət ediblər.

# Milix Yevdayev: "Dünyanın ən multikultural və tolerant ölkəsində yaşamağımızla fəxr edirik"




"The Times of İsrail" saytında Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayevin "Dünyanın ən multikultural və tolerant ölkəsində yaşamağımızla fəxr edirik" adlı məqaləsi dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.

Müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin tarix boyu sülh və əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanda multikulturalizm əsrlərdən bəri alternativi olmayan həyat tərzinə çevrilib. Bu məmləkətdə bütün xalqlar sülh, əmin-amanlıq şəraitində xoşbəxt yaşayır. Azərbaycanda heç vaxt dinlərarası, millətlərarası zəmində hər hansı mübahisələr, çəkişmələr, digər xoşagəlməz hallar olmamışdır. Nə üçün? Ona görə ki, ulu öndər Heydər Əliyevin dediyi kimi, tolerantlıq yüksək mədəniyyətin təzahürüdür. Azərbaycanda əsrlər boyu tolerantlıq olub, var və olacaq.

Biz dağ yəhudiləri də uzun əsrlərdir ki, bu torpaqda məskunlaşmışıq. Azərbaycan xalqı həmişə bizə dayaq olub və bir qalxana çevrilərək həmişə bizi bütün bəlalardan müdafiə edib. Azərbaycanı özünə doğma vətən bilən yəhudilər heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmayıblar. Biz azərbaycanlılarla doğmalaşıb, qardaşlaşmışıq. Bu qardaşlığın rəmzidir ki, Azərbaycanda yaşamış və indi bütün dünyaya yayılmış dağ yəhudilərinin hər biri özünü hər vaxt, hər zaman azərbaycanlı sayır və Azərbaycanı öz Vətəni hesab edir. Onlar tarixən xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin, etnik-dini tolerantlığın, multikultural mühitin hökm sürdüyü çoxmillətli cəmiyyətimizdə əmin-amanlıq şəraitində yaşayaraq dil və mədəniyyətlərini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini günümüzə qədər qoruyub saxlayıblar.

Xüsusilə qeyd etməyi özümə borc bilirəm ki, Azərbaycanda tolerantlıq ənənələri Heydər Əliyevin ölkəmizdə rəhbərliyə gəlişindən sonra daha da möhkəmləndi. Bu mənada, Heydər Əliyev bir zirvə idi. Zirvənin əzəməti isə uzaqlaşdıqca aydın görünür. Ona görə illər ötdükcə Ulu Öndərin əzəmətini biz daha aydın görürük. Heydər Əliyev xalqımızın, məmləkətimizin arzuları ilə yaşayırdı. Bu gün isə Prezident İlham Əliyev Ulu Öndərin layiqli siyasi davamçısı olaraq, o arzuları həqiqətə çevirir. Təsadüfi deyil ki, Azərbaycanda müxtəlif xalqların, millətlərin və konfessiyaların mədəniyyətinin, tarixinin, adət-ənənələrinin saxlanılması və qorunması ilə bağlı xüsusilə indiki dövrdə böyük işlər görülür. Bu məsələdə Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri misilsizdir.

Məhz Prezident İlham Əliyevin dəstəyi sayəsində qısa müddətdə Bakıda bizim üçün yeni və daha geniş sinaqoq inşa edilərək 2011-ci ilin martında istifadəyə verildi. Dünyada analoqu olmayan haldır ki, əhalisinin 96 faizi müsəlman olan bir dövlət yəhudilərə sinaqoq tikib. İcmamızın fəaliyyəti üçün daim dövlət tərəfindən maliyyə yardım ayrılır. Buna dünyanın heç yerində rast gəlmək mümkün deyil. Bu ibadətgah Azərbaycanda yaşayan dağ yəhudilərinə, ümumiyyətlə, bütün dünyaya yayılmış dağ yəhudilərinə möhtəşəm bir töhfədir. Həmin möhtəşəm töhfəyə görə Allah-Təalanın bizə verdiyi qismətdən istifadə edərək Prezidentə daim minnətdarlığımızı bildiririk. Hər şabat günü biz Azərbaycan dövlətinə, Azərbaycan Prezidentinə və onun ailəsinə dualarımızı Allahdan diləyirik. Yəhudilər Azərbaycanın bütün qələbələrinə sevinir və bundan qürur duyur, Azərbaycanı öz doğma vətəni hesab edirlər. Biz dünyanın ən multikultural və tolerant ölkəsində yaşamağımızla fəxr edirik. Biz Azərbaycanın bir parçasıyıq, bizi heç vaxt Azərbaycandan ayırmaq mümkün deyildir. Harada yaşamağımızdan, harada olmağımızdan asılı olmayaraq biz həmişə azərbaycanlıyıq.

# Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən!




Sərlövhəyə təqdim etdiyim bu fikirlərin müəllifi dahi rus şairi Aleksandr Sergeyeviç Puşkindir. Bu gün Ermənistanın və bütövlükdə dünya ermənilərinin Azərbaycana qarşı apardığı ədalətsiz müharibənin, ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərin və soyqırım aktlarının şahidi olan - irqindən, dinindən, milliyyətindən aslı olamayaraq hər kəs bu fikirlə həmrəydir. Qədim Roma tarixçisi Tatsit ermənilər haqqında yazırdı: "Bu xalq (ermənilər) istər xasiyyətinə, istərsə də coğrafi mövqeyinə görə qədimdən ikiüzlü və riyakardır". Həmin Roma tarixçisinin yaşadığı dövrdən az qala 1500 il sonra dahi rus şairi Puşkin də ermənilər haqqında belə bir acı həqiqəti etiraf etmiş, heç də əvvəlkindən fərqlənməyən xarakteristika vermişdi. Puşkin Qafqazla bağlı məhşur şeirlərindən birində ermənilərə xitabən yazırdı: "...Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən"!

Ermənilər haqqında qədim dünya məxəzlərindən tutmuş dövrümüzün bütün yazılı və şifahi ədəbiyyatında, xalq deyimlərində, eləcə də, dünyaca məşhur ayrı-ayrı söz sahiblərinin kəlamlarında yalnız bu cür təsvirlərə rast gəlmək mümkündür. Deməli, ermənilər yaranışdan bu günə qədər nə tarixi-siyasi şəraitə uyğun olaraq, nə tez-tez köçəri tayfa kimi coğrafi yerdəyişmələrinə rəğmən öz xain xislətlərini, alçaq və şərəfsiz simalarını, riyakarlıqlarını qoruyub saxlamışlar. Bu onlara Yaradan tərəfindən verilmiş alın yazısı, sanki Allahın bir lənətidir. Məşhur Alman səyyahı hələ orta əsrlərdə yazırdı ki, Türklə qarşılaşdıqda onun sözünə inan, yunanla qarşılaşdıqda hökmən müqavilə imzala, erməni ilə qarşılaşdıqda isə nə onun sözünə inanmaq olar, nə də onun müqaviləsinə. O səni, elə ilk andaca satacaq, sənə xəyanət edəcək.

Bəli, XXI əsrdə biz də, eləcə də, bütün dünya ictimaiyyəti erməni riyakarlığının, erməni həyasızlığının, erməni yalanının, ikiüzlülüyünün şahididir. Ermənilər uzun illər himayəsində yaşadıqları Osmanlı Türkiyəsinə arxadan zərbə vurdular, Türklərə qarşı soyqırım həyata keçirdilər. İranda yaşayan ermənilər müxtəlif vaxtlarda İran dövlətinə, İran hökumətinə qarşı müxtəlif və iyrənc xəyanət planları işləyib hazırlamışlar. Ermənilər rusların birbaşa himayəsi sayəsində Qafqaza gəldikdən sonra, torpağında məskunlaşdığı Azərbaycanlılara qarşı dəfələrlə xəyanət etdilər, bizlərə qarşı XX əsrin sonlarında soyqırım aktı həyata keçirdilər.

Ermənilər bu gün də özlərinin şərəfsiz tarixi missiyalarını davam etdirməkdədirlər. "Arxalı köpək qurd basar" məsəlli ermənilər bu gün yenə də Azərbaycana qarşı öz həyasız xislətlərini gizlətmirlər. Çünki arxalarında hələ də güc hiss edirlər. Ancaq unudurlar ki, onların həmişə xəyanət etdikləri azərbaycanlıların bu gün daha güclü, dünyada söz sahibinə çevrilmiş bir Azərbaycan dövləti var. Və nəhayət, onu da unudurlar ki, Azərbaycan və azərbaycanlılar tarixin sınağından çıxmış erməni yalanlarına və riyakarlıqlarını, erməni ikiüzlülüyünü daha unudan deyildir.

Tarixi təcrübə göstərir ki, ermənilər hansı coğrafi məkanda toparlana bilibləsə, az müddət sonra həmin ərazinin özününküləşdirilməsinə səylər göstəriblər. Onlar sonradan gəldikləri həmin ərazilərin tarixini saxtalaşdırmağa başlayır və burada "qədim erməni torpağında" öz dövlətlərini yaratmaq uğrunda mübarizəyə başlayırlar. Bu gün əminliklə proqnoz vermək olar ki, Rusiyanın himayəsində yaşayan və bu himayədə qonşularına qarşı ərazi iddiaları irəli sürən ermənilər vaxt keçəcək Şimali Qafqazda - Rostov-Donda, Soçidə, Kislovodskda, Nalçikdə, Stavropolda və s. öz müqəddəratını təyin etmək uğrunda mübarizəyə başlayacaqlar. O gün heç də uzaqda deyil, necə ki, həmin ermənilər bu gün də rəsmi Moskvanın etiraf etdiyi kimi Böyük Vətən Müharibəsi illərində faşistlərlə əlbir olmuşdurlar. Onlar artıq bir dəfə Rusiyaya xəyanət ediblər. Tarix bir yaddaşdır, onu heç kəs unutmasın gərək!

***Hüseyn Paşayev***
***YAP Mətbuat Xidmətinin rəhbəri,***
***YAP Siyasi Şurasının üzvü***

# "Prezident informasiya cəbhəsində də ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edir"

"Azərbaycan hazırda Vətən müharibəsi aparır. Bu müharibədə uğurlu hərbi əməliyyatlarla yanaşı, diplomatik, siyasi və informasiya cəbhəsində də nailiyyətlər qazana bilirik. Bütün bunlar Ali Baş Komandan İlham Əliyevin siyasi təcrübəsi və iradəsi sayəsində reallaşır. Son günlər isə Prezident İlham Əliyev informasiya cəbhəsində də ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edir, bu cəbhədə də yeni tarix yazır. Nəzərə almaq lazımdır ki, müasir mərhələdə müharibələr hibrid müharibələr kimi xarakterizə edilir". Bunu SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.



Deputatın sözlərinə görə, Azərbaycan Ordusu ön cəbhədə savaşaraq qələbələr qazanır, diplomatiyamız diplomatik cəbhədə uğurları sıralayır: "Biz bu gün informasiya cəbhəsində də paralel olaraq uğurlu müharibə aparırıq. Sadalananların hər birində qiymətli və tarixi qələbələr əldə edirik. İlk baxışda hibrid müharibələr fərqli platforma, müstəvi və seqmentlərdə aparılsa da, bütün bunların hamısının bir qəhrəmanı var ki, o da milli gücün beyni hesab edilən milli diplomatiyamızı formalaşdıran, xarici siyasət strategiyamızın müəllifi olan Prezident İlham Əliyevdir. Sentyabr ayının 27-dən bu günə qədər Azərbaycan Prezidenti Ali Baş Komandan olaraq müzəffər ordumuzun hərbi-strateji əməliyyatlarına uğurla rəhbərlik etdiyi kimi diplomatiya kimi, informasiya və siyasi müstəvidə də tarixi nailiyyətlərə imza atıb. Hərbi uğurlarımız o qədər böyükdür ki, Azərbaycan özünün son 200 illik tarixində heç vaxt sırf hərbi müstəvidə belə böyük qələbələrə imza atmayıb. Ona görə də həm mahiyyətcə, həm məzmunca bu savaş bizim əsl qurtuluş savaşımızdır. Eyni zamanda, paralel olaraq 27 sentyabrdan bu günədək Azərbaycan Prezidenti dünyanın təsir dairəsi və miqyas etibarilə ən böyük, aparıcı informasiya resurslarına, televiziya kanallarına müsahibələr verib. "Əl-Ərəbiyyə"dən başlamış "Əl-Cəzirə", CNN, "Rossiya1", RBK, "Haber Global"a qədər çoxsaylı telekanallara verilən bu müsahibələrdə Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırıb. Bu müsahibələrin hər biri diplomatiya tarixinə yazılacaq tarixi müsahibələrdir. Ayrı-ayrılıqda analiz etdikdə isə onların hər biri gerçəkliyinə, məzmun tutumuna, həqiqətləri ifadə etmələrinə görə xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, həmin müsahibələrdə önə çıxan xüsusi bir məsələ var və onun üzərində ayrıca dayanmaq lazımdır. Bu, Prezident İlham Əliyevin verdiyi müsahibələrdə istifadə etdiyi diplomatik dil, üslub, metod və məzmundur. Bunların hər biri ayrılıqda qlobal ictimai rəyi bizim lehimizə dəyişmək üçün xüsusi seçilmiş və çox effektiv formalardır.

Hələ 27 sentyabrdan əvvəl də, 12-16 iyul tarixində Tovuz təxribatı hadisələrindən sonra Prezidentin çıxışlarında çox mühüm strateji mesajlar gördük. Həm daxili auditoriya, həm də bütün dünya, beynəlxalq təşkilatlar çox mühüm mesajların verildiyinin şahidi oldu. Həmin dövrə diqqət etsək, görəcəyik ki, bu, ən yeni diplomatiya və ən yeni siyasi tariximizin qlobal informasiya məkanında əldə etdiyi çox mühüm qələbələr və tarixi çıxışlar idi. Azərbaycan Prezidenti BMT Baş katibi ilə bir neçə dəfə danışdı və ölkəmizin haqlı mövqeyini izah edərək bizi, Cənubi Qafqazın təhlükəsizliyini təhdid edən hadisələrlə bağlı işğalçı Ermənistanın atacağı addımları öncədən onun diqqətinə çatdırdı. Baş katiblə danışıqdan bir gün sonra Avropa İttifaqının Cənubi Qafqaz üzrə səfirini qəbul edərkən bir daha ona regionu nələrin gözlədiyini, rəsmi İrəvanın bölgəni müharibəyə sürüklədiyini söylədi. Dövlət başçısı baş verə biləcək hadisələrin bütövlükdə Cənubi Qafqazın və Avropanın enerji təhlükəsizliyini təmin edən enerji koridorunu təhdid edəcəyi ilə bağlı fikirlər səsləndirdi.

Bütün bunlar onu göstərir ki, istər ön cəbhədə qurtuluş savaşımızda, istərsə də diplomatiyada, siyasi müstəvidə əldə etdiyimiz qələbələrin yalnız bir memarı var, o da Prezident İlham Əliyevdir. Elə beynəlxalq müstəvidə bu günə qədər ölkəmizin hər hansı bir dövlət, yaxud beynəlxaq təşkilat tərəfindən qınana bilməməsi də məhz Prezidentin etdiyi çıxışlar və həmin fikirlərin, müsahibələrin inandırıcılığı ilə bağlıdır. O, bu fikirləri ilə indiyə qədər qlobal informasiya məkanında ümumi ictimai rəyi bizim lehimizə təmin edib. Düşünürəm ki, bu çıxışlar, müsahibələr və ümumilikdə baş tutan uğurlu gedişlər Azərbaycanın diplomatiya tarixində əldə etdiyi ən böyük uğurlar kimi diplomatiya və siyasi fənlər üzrə tədris olunan dərsliklərdə əyani vəsait şəklində öz əksini tapmalı, öyrənilməlidir. Əminliklə söyləyə bilərik ki, müharibədə Prezidentimizin indiyə qədər əldə etdiyi uğurlar bundan sonra Dağlıq Qarabağın Azərbaycana qaytarılmasını təmin etmək üçün elə möhkəm hərbi-siyasi zəmin yaradıb ki, ərazi bütövlüyümüzün bərpası ən qısa zamanda baş tutacaq".

# Azərbaycan tarix yazır: yolumuz Qarabağadır!

## Azərbaycan Prezidenti və Azərbaycan Ordusu 30 ilə yaxın davam edən status-kvonu 10 gündə dəyişdi




... 30 il əvvəl Qarabağdan bələkdə gəlmiş körpə oğlanlar bu gün Qarabağa əldə silah, müzəffər Ordunun xilaskar əsgəri kimi qayıdır.

... Bir ana 30 ildir yanında gəzdirdiyi boğçasını açır, titrəyən barmaqları ilə oradan bir açar çıxarıb oğlanlarına uzadır: Qarabağdakı evimizin açarıdır. Gedin, qapımızı açın.

... Kişilər ağlamaz deyirlər. Mənim yaxından tanıdığım 70 yaşlı məcburi köçkün Adil müəllim ömründə iki dəfə ağlayıb: 27 il əvvəl Cəbrayıldakı evini qoyub gələndə və 27 il sonra doğma yurdunun azad edilməsi xəbərini eşidəndə. Biri kədərdən doğan göz yaşları idi, o biri sevincdən doğan göz yaşlarıdır.

Aşağıdakı qeydlərim bu duyğusal həyat epizodlarının, Prezident İlham Əliyevin bir neçə gün əvvəl xalqa növbəti tarixi müraciətinin, "Əl-Cəzirə", "Euronyus", "CNN International", "Sky Nyus", "Əl-Ərəbiyə", "TRT Haber", "CNN Türk", "Haber Qlobal", "Rossiya-1", Rusiyanın "Pervıy kanal" və digər telekanalların müxbirlərinin suallarına məntiqli, tutarlı arqumentlərə əsaslanan cavablarının və xalqın ürəyindən xəbər verən bəyanatlarının təsiri altında yazılıb. Yəqin, oxucu bəzən emosiyaya qapılmağımı da başa düşər və bunu bağışlayar.

X X X

Sentyabrın 27-dən, təcavüzkar Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı və Ordumuzun sürətli əks-hücuma keçməsi barədə xəbərlərin gəldiyi ilk gündən əlim klaviaturaya uzanır, içimdə yığılıb qalmış fikir və düşüncələri, şahidi olduğum hadisələri paylaşmaq ehtiyacı duyuram. Qüdrətli ordumuzun bu günədək qazandığı uğurlara əsasən hadisələrin inkişafının ehtimal edilən ssenarilərini proqnozlaşdırmaq bizim peşənin xüsusiyyətindən irəli gəlir. Amma mən bunları bir kənara qoyub oxuculara, ilk növbədə, qəlbimdə aşıb-daşan sevinc və qürur hisslərini, emosiyalarımı çatdırmaq istərdim.

Bütün həyatını jurnalist peşəsinə həsr etmiş bir insan kimi, bəlkə də ilk dəfədir qeyri-adi vəziyyətlə üzləşmişəm: kompüterin qabağına keçib baş verənlər barədə düşüncələrimi yazmağa başlayandan bir-iki saat sonra əl saxlamalı oluram. Hadisələr o qədər sürətlə dəyişir, cəbhədən o qədər qaynar xəbərlər alırıq, Teleqram kanallarının səsləri o qədər çox eşidilir ki, monitordakı sətirlər, bütöv abzaslar bir-iki saatdan sonra "köhnəlir" və hər şeyi təzədən başlamaq lazım gəlir. Bu, qırx beş illik jurnalist təcrübəmdə bəlkə də heç vaxt qarşılaşmadığım fenomendir.

Qeyri-adi günlər yaşayırıq. Azərbaycan xalqı öz Prezidentinin rəhbərliyi, rəşadətli Ordusunun iştirakı ilə şanlı tarix yazmaqdadır. Bu günlərin hər saatı, hər dəqiqəsi bir dastandır.

Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev münaqişənin sülh yolu ilə həllindən başqa yol yoxdur deyənlərin cavabını verdi: Var başqa yol, - dedi və dediyini etdi. Uzun illərdir status-kvonun qəbuledilməzliyini deyənlərə, amma heç bir iş görməyib işğalçının başına sığal çəkənlərə göstərdi ki, məsələni necə həll etmək olar. Ali Baş Komandanın əmri ilə döyüşə atılan müzəffər Ordumuz 30 ilə yaxın davam edən status-kvonu 10 günün içərisində dəyişdi. İndi nə status-kvo var, nə də təmas xətti. Bunu xalqımızın iradəsi ilə Ali Baş Komandan, Azərbaycan Ordusu döyüş meydanında etdi.

Əks-hücum əməliyyatlarının başladığı ilk gündən "atəşi dayandırın, danışıqlara başlayın" deyən supergüclərin, fövqəldövlətlərin aramsız təzyiqlərinə mərd-mərdanə sinə gərən Prezidentimiz nəyi necə və nə vaxt etmək lazım gəldiyini bilir. Bu, Qarabağ uğrunda döyüşlərin gedişində bir daha təsdiqləndi. Ali Baş Komandan İlham Əliyev təkbaşına bir ordunun işini gördü: həm savaş meydanında, həm diplomatiya və siyasi platformalarda. Bir vaxt "Qarabağ Ermənistandır" deyən, Şuşada ədəbazcasına rəqs edərək acıq verən, bizi təhqir edən paşinyanlara öz yerini göstərdi. Paşinyanı - bu riyakar, avantürist, siyasətdən uzaq küçə adamını rəzil duruma saldı. Onu yalvarmağa məcbur etdi: indi çıxıb desin, "Qarabağ Ermənistandır, görək necə deyir".

Sorosun pulları ilə hakimiyyətə yiyələnən Paşinyan erməni xalqını da özü kimi rəzil etdi, yerə vurdu, alçaltdı.

İlham Heydər oğlu öz qətiyyəti, cəsarətli və müdrik qərarları ilə dünyanın gözündə bir daha yüksəldi, özü ilə bərabər xalqımızın şərəfini, ləyaqətini də göylərə qaldırdı.

Milli maraqlarımızın müdafiəsində sonadək dayanan Prezidentimizin olması bizim böyük xoşbəxtliyimizdir, Qarabağın xilasının qarantıdır. Xalqımız öz Prezidentinə inanır. Bu inama arxalanan, nəyi necə və nə vaxt etmək lazım gəldiyini yaxşı bilən İlham Əliyev Ermənistana son şans verdi və sözünü dedi: Çıxın bizim torpaqlardan, çıxın, öhdəlik götürün, danışıqların formatına qayıdın. Biz nə desək o olacaq və onlara şans veririk ki, torpaqlarımızdan sülh yolu ilə çıxsınlar, rədd olub getsinlər. Biz nə yolla olursa-olsun, bu torpaqlara qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Son hadisələr düşmənə də, bütün dünyaya da göstərdi ki, bu şərəfli, namuslu xalqın heysiyyəti ilə oynamaq, onu təhqir etmək olmaz. Azərbaycanın Prezidenti, Azərbaycan xalqı bunu paşinyanlara bağışlaya bilməzdi və bağışlamadı.

Bu gün öz Liderinin ətrafında yumruq kimi birləşən, misli görünməmiş həmrəylik nümayiş etdirən Azərbaycan xalqı doğma torpağı uğrunda ölüm-dirim savaşına qalxıb. Bu taleyüklü məqamda 10 milyon qəlb bir ürək kimi vurur. Bu, sözün əsl mənasında, Vətən müharibəsidir. Azərbaycan əsgəri öz canı-qanı bahasına düşməni Vətən torpaqlarından qovub çıxarır. Düşmən mərmisinin evini başına uçurduğu Ana, oğlu şəhid olmuş Ana başını dik tutaraq deyir: Təki Vətən yaşasın!

Adi hallarda sağlam düşüncəli heç bir insan müharibə istəməzdi. Lakin sülhsevər Azərbaycan xalqı bu müharibəyə işğalçılıq siyasətindən əl çəkməyən Ermənistan rəhbərliyi, beynəlxalq daşnak ideoloji mərkəzləri tərəfindən zorla cəlb olunub, buna məcbur edilib. Bizi buna dünyanın biganəliyi, beynəlxalq təşkilatların, Minsk qrupu adlandırılan vasitəçilərin ötür-ötür oyunu vadar edib. Otuz ildir ki, təcavüzkarla təcavüzə məruz qalan eyni tutulur, dünya 30 ildir ki, bu ədalətsizliyi, yurdu yağmalanmış bir milyon azərbaycanlının ağrı-acısını soyuqqanlılıqla seyr edir. "Bəsdir, yetər" deyib ayağa qalxan xalqın bu savaşı tarixi ədalətin bərpasına yönəlmiş döyüşdür, beynəlxalq hüququn ona verdiyi haqdır.

Prezidentimiz beynəlxalq kürsülərdən, BMT tribunasından dönə-dönə bəyan edirdi ki, işğala son qoymaq, təcavüzkarı buna məcbur etmək lazımdır. Münaqişənin nizamlanmasına vasitəçilik edən Minsk qrupu fəaliyyət göstərdiyi ötən 26 ildə bir addım atdımı? Atmadı. Yığışdılar, danışdılar və dağılışdılar. BMT Təhlükəsizlik Şurasının 27 il əvvəl qəbul etdiyi dörd qətnamə bu gün də kağız üzərində qalır. Ermənistanın siyasi rəhbərliyinə küçədən gəlmiş birisi "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesinin üstündən xətt çəkdi.

Qudurğan düşmənə "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri ilə cavab verən Prezidentimiz dünyaya səsləndi: Siz qarışmayın, öz taleyimizi özümüz həll edərik.

"Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir" - görün bunu kim deyir: münaqişənin nizamlanması üçün vasitəçilik mandatı verilmiş Minsk qrupunun üç həmsədrindən biri olan Fransanın dövlət başçısı. Görünür, Makron ya tarixdən bixəbərdir, ya da Fransadakı erməni lobbisinin çaldığı havaya oynayır. Prezidentimiz ona da öz kəskin cavabını verdi, bu əcaib sözünə görə Azərbaycandan üzr istəməyə çağırdı. Makron kimiləri tək deyil. Müharibə Ermənistanda yox, Azərbaycan torpağında gedir. Yeri gəlmişkən, Rusiya Prezidenti müsahibələrinin birində bunu xüsusi vurğuladı: müharibə Ermənistanda getmir.

Bu iki fərqli yanaşma fonunda üçüncü ölkələrdən olan, öz beyinlərini işlətmək əvəzinə ermənilərin uydurduğu "Azərbaycanın təcavüzü" barədə tezisi tez-tez təkrarlayan boşboğazlardan soruşmaq lazımdır: "Azərbaycanın Qarabağa təcavüzü" barədə danışmaq "Fransanın Marselə qarşı təcavüzü", yaxud "Almaniyanın Bavariyaya hücumu" barədə cəfəngiyata bənzəmirmi?!

X X X

Münaqişə, müharibə və dünyanın buna yanaşması barədə bu müxtəsər düşüncələrdən sonra bilavasitə bağlı olduğum sahəyə qayıtmaq istərdim. Mənim üçün istinad nöqtəsi Azərbaycan Prezidentinin CNN-Türk telekanalına müsahibəsində səsləndirdiyi fikirlər oldu. Dövlətimizin başçısı uzun illərdir Azərbaycana qarşı aparılan qara təbliğatdan danışdı və bunun səbəblərini açıqladı. Xüsusən biz media işçiləri bunun bilavasitə şahidiyik. Aramsız qarayaxmalara, şər və böhtanlara tutarlı cavab veririk. Azərbaycan reallıqlarından, Qarabağ, Xocalı həqiqətlərindən bəhs edən materialları əməkdaşlıq etdiyimiz dünya KİV-lərində bütün mümkün vasitələrlə yaymağa çalışırıq.

İndi, son hadisələr başlayan vaxtdan qara təbliğatın yeni dalğası baş qaldırıb. Bəzi ölkələrin bu işdə marağı olan dairələri, media orqanları Azərbaycanın imicini ləkələmək üçün olmazın yalanlar uydurur, informasiya məkanında münaqişə ilə bağlı yanlış rəy formalaşdırmağa aramsız cəhdlər edirlər. Prezidentin qeyd etdiyi kimi, bizə ünvanlanan bu ittihamlarla təkbaşına mübarizə apararaq müəyyən uğurlar əldə etmişik. Ancaq bizim də imkanlarımız məhduddur. Bir çox hallarda bizim səsimiz eşidilmir. Beynəlxalq media qurumları da-

# Azərbaycan tarix yazır: yolumuz Qarabağadır!

## Azərbaycan Prezidenti və Azərbaycan Ordusu 30 ilə yaxın davam edən status-kvonu 10 gündə dəyişdi

ha çox Ermənistanın tərəfini tutur, münaqişə ilə bağlı yalan məlumatlar yayırlar. Yaxşı ki, bu çətin gündə qardaş Türkiyə, eləcə də onun bütün KİV-ləri bizim yanımızdadır, səslərini bizim səsimizə qataraq dünyaya Azərbaycanın ədalətli mübarizəsi ilə bağlı həqiqətləri çatdırırlar.

Bu gün bir sıra KİV-lər Paşinyanın hərbi əməliyyatlarda guya Türkiyə F-16-larının, türk hərbçilərinin iştirakı barədə yalanlarını tirajlayır. Azərbaycan və Türkiyə qardaş ölkə, üstəlik yaxın qonşulardır. Ulu Öndərimiz bu qardaşlığı bir neçə sözlə belə ifadə edib: "Bir millət, iki dövlət". Türkiyənin belə ağır gündə bizə dəstək verməsi tamamilə təbii və başa düşüləndir. Amma o da təkzibolunmaz həqiqətdir ki, biz öz torpaqlarımızı özümüz azad edirik. Azərbaycan Ordusu düşmənə istənilən cavabı verməyə qadirdir və verir.

Ermənistana gəlincə, ona hər cür dəstək verən, silah ötürən çoxdur. Bu gün hamıdan artıq canfəşanlıq edən Fransanı götürək. Bəlkə ermənilər və fransızlar da "bir millət, iki dövlətdir", bəlkə qonşudurlar? Parislə İrəvan birbirindən 4500 kilometr aralıdadır, avtomobillə azı 50 saatlıq yoldur. Türkiyədən isə Azərbaycana əl uzatsan çatar.

Bizim yaxınlığımız, türk qardaşlarımızın "Azərbaycan tək deyil" deməsi Ermənistanı həm qıcıqlandırır, həm də qorxuya salır. Türkiyə ordusu bu gün NATO-nun ən güclü iki ordusundan biridir. Türkiyə modern silahlar istehsal edir. Biz Türkiyədən də, başqa ölkələrdən - Rusiyadan, Ukraynadan, İsraildən də silahı pulla alırıq. İşğalçı Ermənistana isə silahı pulsuz verirlər. İqtisadiyyatı çökmüş, dilənçi vəziyyətinə düşmüş Ermənistanın silah almağa pulumu var? Prezidentimiz müsahibələrindən birində bu məqamı vurğulayaraq dedi: Bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, bu münaqişə çoxdan çözülərdi.

Bu gün cəbhə xətti şərti termindir. Bu gün bütün Azərbaycan cəbhədir - bütün oğlu-qızı, cavanı-yaşlısı ilə. Hərə öz sahəsində Vətən üçün, böyük Qələbəmiz naminə var qüvvə ilə çalışır. Bu taleyüklü anlarda jurnalist də bir əsgər, söz də bir silahdır. Ermənistan bizə qarşı həmişə olduğu kimi, bu dəfə də ikinci cəbhə - informasiya cəbhəsi açıb. Ermənipərəst media (belə media çox yerdə var - Fransada, Almaniyada, ABŞ-da, Rusiyada... Okeanın o tayında da, bu tayında da) olmazın yalanlar və böhtanlar tirajlayır, Azərbaycana iftiralar atır, gözgörəsi tərəfkeşlik edir. Həmişə belə olub. İndi isə xüsusi fəallıq və canfəşanlıq görürük. Qoy olsun, yalan ayaq tutsa da yeriməz.

Bu günlər Azərbaycan mediası siyasi yönümündən və mövqeyindən asılı olmayaraq görünməmiş həmrəylik nümayiş etdirir, haqq işimizə hamılıqla informasiya dəstəyi verir. AZƏRTAC-a gəlincə, biz bütün mümkün vasitələrlə Azərbaycanın ədalətli savaşı barədə materialları dünya informasiya məkanına çıxarmağa çalışırıq. Agentliyimiz 35 ölkədən 44 agentliyi öz sıralarında birləşdirən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) vitse-prezidentidir, eləcə də Dünya Xəbər Agentlikləri Konqresində (NAWC) fəal təmsil olunur (yeri gəlmişkən, Bakı 2016-cı ildə hər iki mötəbər beynəlxalq təşkilatın forumlarına ev sahibliyi edib). Bizim tərəfdaşlarımız sırasında Çinin Sinxua, Rusiyanın TASS, Türkiyənin Anadolu, Cənubi Koreyanın Yonhap, Yaponiyanın Kyodo, Malayziyanın Bernama kimi informasiya nəhəngləri var. Tərəfdaş KİV-lərdən danışarkən, dünyanın müxtəlif guşələrində 100 milyondan çox oxucusu olan ingilisdilli "Chine Daly" qəzetinin adını da xüsusi qeyd etmək istərdim.

Cəbhə xəttində əməliyyatların aktiv fazasında bu və digər mötəbər informasiya agentlikləriAZƏRTAC-a istinadla çoxsaylı xəbərlər, foto və videolar yayımladı və yayımlamaqda davam edir. Bundan əlavə, xarici ölkələrdəki müxbir məntəqələrimizin xətti ilə yerli mətbuatda Ermənistan rejiminin uydurduğu yalanlara, böhtanlara cavab olan yazılar dərc edilir. Eyni zamanda, AZƏRTACüzvü olduğu bütün beynəlxalq və regional media qurumlarının və tərəfdaş informasiya agentliklərinin rəhbərlərinə müraciət ünvanlayaraq, onları Ermənistanın Azərbaycana təcavüzünü və regionda baş verən hadisələri obyektiv, qərəzsiz işıqlandırmağa, haqqın və ədalətin tərəfində dayanmağa çağırıb.

X X X

Azərbaycan müharibə istəmirdi. Elə buna görə də ulu öndərimiz Heydər Əliyev də, Prezidentimiz İlham Əliyev də 30 ildir çalışırdılar ki, münaqişə danışıqlar yolu ilə, sülhlə çözülsün. Mən Ulu Öndərimizin tarixi səfərlərini əvvəldən sonadək işıqlandıran jurnalist kimi şəxsən şahidəm: Heydər Əliyev Qarabağ probleminin qan-qadasız, danışıqlar masası arxasında həll olunması üçün son dərəcə gərgin iş aparır, maksimum səylər göstərirdi. Bu, uzun söhbətin mövzusu olduğundan iki məqamı xatırlatmaqla kifayətlənməyə məcburam.

Ki-Uest, 2001-ci il 3 aprel. Minsk qrupu həmsədrlərinin vasitəçiliyi və dövlət katibi Kolin Panuelin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentləri tam yeni formatda danışıqlar apardılar. Ulu Öndərimiz bu görüşdə tarixi bəyanatla çıxış etdi, münaqişənin tənzimlənməsinə mane olan səbəbləri göstərdi, Dağlıq Qarabağ həqiqətlərini çatdırdı, həll yollarına dair öz mülahizələrini söylədi. Bəyanatdan kiçik bir sitat gətirmək yerinə düşər: "Bu gün dünyada bir dövlətin başqa bir dövlətin ərazisini işğal etməsi, orada etnik təmizləmə aparması kimi ikinci bir hala rast gəlmək mümkün deyil. Təəssüf ki, dünya birliyi bu faciəni sükutla seyr edir... Rusiyanın, ABŞ-ın, Fransanın simasında ATƏT-in Minsk qrupunun rəhbərlərinə bəslədiyimiz ümidlər hələlik gözlənilən nəticəni vermir".

Heydər Əliyevin bu sərt bəyanatı, qətiyyətli mövqeyi və haqlı iradı müəyyən canlanma yaratdı.

Xatırlayıram, Ulu Öndər Ki-Uestdən Vaşinqtona yollandı. ABŞ Prezidenti Corc Buşun burada Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Koçaryan ilə ayrı-ayrılıqda görüşləri oldu. ABŞ-ın yüksəkvəzifəli şəxslərinin Ağ evdə keçirilən brifinqdə bu görüş və danışıqların uğurundan necə ağızdolusu danışdıqları da yaxşı yadımdadır. Bundan bir ay sonra Ulu Öndərimiz Fransaya səfər etdi.

Paris, 2001-ci il 5 mart. Yelisey sarayında Fransa Prezidenti Jak Şirakın iştirakı ilə Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Koçaryan arasında növbəti danışıqlar oldu. Üç saatdan çox davam edən danışıqlardan sonra hər üç prezident birgə mətbuat konfransı keçirdi. Təfərrüata varmadan onu deməklə kifayətlənirəm ki, jurnalistlərin suallarını cavablandıran Fransa Prezidenti Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm irəliləyişin əsasının qoyulduğunu vurğulayaraq belə dedi: "Həqiqətən ümidvar olduğumu bildirmək istərdim ki, bu münaqişə cari ilin sonunadək həll ediləcək və onun qarşılıqlı surətdə məqbul həlli tapılacaq".

Həqiqətən də Ki-Uest və Paris danışıqları böyük ümidlər yaratmışdı. 2001-ci ilin yazında münaqişənin həllinə çox yaxınlaşılmışdı. Lakin sonradan sanki hansısa gözəgörünməz əl çarxı başqa səmtə yönəltdi.

O vaxtdan az qala 20 il keçir. Corc Buş getdi, Barak Obama gəldi, Obama getdi, Donald Tramp gəldi. Jak Şirak getdi, Nikola Sarkozi gəldi, Sarkozi getdi, Fransua Olland gəldi, Olland getdi Emmanuel Makron gəldi. Münaqişə isə həll olunmamış qaldı...

Prezident İlham Əliyevin də münaqişəni danışıqlar yolu ilə həllinə göstərdiyi aramsız səylərin şahidiyik. Müəyyən mərhələdə həll yolu tapılmış kimi görünürdü. Məsələn, tərəflərin razılaşdığı Madrid prinsipləri işğal olunmuş Azərbaycan torpaqlarının mərhələli şəkildə qaytarılmasını nəzərdə tutur. Biz ümidlə bu prinsiplərin işə düşəcəyini gözləyirdik. Lakin Paşinyan gəldi və 30 il davam edən bütün danışıqların, eləcə də hər iki tərəf üçün məqbul olan Madrid prinsiplərinin üstündən xətt çəkərək dedi: biz Azərbaycana bir qarış da torpaq qaytarmayacağıq. Bunun ardınca Ermənistanın məlum hərbi təxribatları başlandı və Azərbaycanın silaha əl atmaqdan başqa yolu qalmadı.

Yəqin heç kəs mübahisə etməz ki, indi planetimizdə yaşayan bütün insanların şahid olduqları hadisələr həqiqətən tarixi əhəmiyyət daşıyır. Azərbaycanın lideri, Azərbaycan xalqı tarix yazmaqda davam edir - Prezidentimiz öz qətiyyəti, müdrik siyasəti və sərkərdəliyi, xalqımız möhtəşəm birliyi və qələbə əzmi, əsgərimiz öz qanı-canı və silahı ilə yazır bu tarixi. Jurnalistlərimizin, reportyorlarımızın üzərinə isə bu həqiqət anlarını salnaməләşdirmək borcu düşür.

X X X

Münaqişənin həllini bu qədər uzatmaqda hansı məqsədlər güdülürdü? Düşünürdülər ki, yaşlı nəsil dünyadan köçəcək, onları əvəz edən, bu yerləri heç vaxt görməyən yeni nəsil Qarabağı unudacaq, yaxud zaman Xocalını unutduracaq. Beləcə, hər şey öz-özünə sakitləşəcək. Əksinə, zaman onların bu düşüncələrində, hesablamalarında yanıldıqlarını göstərdi.

Bu yerdə Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanı yada düşür. Heç bir imperiya, heç bir işğalçı, yadelli qüvvə nə qədər ağlagəlməz üsullara əl atsa belə, xalqları manqurtlaşdırmağa nail olmayıb. Yeni nəsil Qarabağ görməyib, olsun, axı Vətən, torpaq sevgisi insana gözlə keçmir. Bu, qan yaddaşıdır, tarixi yaddaşdır və onu heç bir vəchlə silmək olmaz. Qarabağı görməyən yeni nəsil Qarabağ naminə ölümə getməyə hazırdır və gedir. Qarabağ kəlməsi hətta məktəbyaşlı uşaqların dilinin əzbəridir.

Yuxarıda bəhs etdiyimiz 30 illik mənzərə qəflətən (əslində həm də gözlənilən idi) dəyişdi. Özü də buna rəvac verən işğalçılar, status-kvonun dondurulmasında maraqlı olanların özləri oldu. Onlar hansısa başqa ölkələrdən "evəşiksiz qalmış yoxsul qohumlarını" gətirib Qarabağda məskunlaşdırmaq fikrinə düşdülər. Belə məlum oldu ki, vaxtilə qanuni sahibindən zorla aldıqları evi öz zövqlərinə uyğun təmir etmək, divarına "Bu mənzil bizimdir və nöqtə" sözləri yazılmış plakat asmaq istəyirlər. Bunun ardınca yeni müharibə bəyanatları səsləndirildi və Azərbaycana qarşı yeni hərbi təcavüzlər başladı...

Görünür, qanuni ev sahiblərinin səbirlərinin tükənməz olmaması barədə çoxillik xəbərdarlıqların söz olaraq qalmayacağını heç kəs gözləmirdi. Səbri həqiqətən tükənən xalq "Bu ev bizimdir və nida işarəsi" deyərək, tarixi ədaləti bərpa etmək üçün öz lideri başda olmaqla, hamılıqla mübarizəyə qalxdı. Görəsən, bu haqlı savaş işğalçının havadarlarını niyə belə əndişələndirir?

Azərbaycan Prezidenti İlham Əliyev bəyanat və çıxışlarında, yerli və xarici KİV-lərə çoxsaylı müsahibələrində sözünü açıq və qəti şəkildə deyir - BMT-yə də, ATƏT-ə də, Minsk qrupuna da, paşinyanlara da. Deyir ki, biz daha 30 il gözləyə bilmərik, işğalçılar torpaqlarımızdan çəkilib getməlidir.

Sentyabrın 27-də İlham Əliyevin xalqa müraciətindən sonra qəlbi inam, qürur və sevinclə dolu on minlərlə insan əllərində bayraq, dillərində "Qarabağ" kəlməsi Bakı küçələrinə axışdı! Paytaxtda misli görünməmiş mənzərə yaşanırdı! Ali Baş Komandanından əmr alan Azərbaycan Ordusu üzərinə düşən missiyanı və döyüş tapşırığını layiqincə icra etməyə başladı. Qısa müddətdə bir sıra torpaqlarımızda 30 ildən sonra üçrəngli bayrağımız yenidən dalğalanmağa başladı: Cəbrayıl şəhərində, Hadrut qəsəbəsində, Suqovuşanda, Talış kəndində və digər kəndlərimizdə. Bir cəbrayıllı kimi məndən ötrü bu, həm də şəxsi xoşbəxtlikdir, buna görə də Ali Baş Komandana, xilaskar Ordumuza, cəsur Azərbaycan əsgərinə minnətdaram!

Yazımın əvvəlində dediyim kimi, otuz il əvvəl öz analarının qucağında, baba-nənələrinin çiyinlərində qarlı aşırımlardan, sıx meşələrdən keçərək gəlmiş körpələr bu gün əcdadlarının torpaqlarına tanklar üzərində qayıdırlar. Biz xoşbəxtik ki, bu Zəfər yürüşünün canlı şahidləriyik.

X X X

Müharibənin öz qanunları var. Ordu ordu ilə savaşar, əsgər əsgər ilə döyüşər - üz-üzə, mərd-mərdanə. Kim güclüdürsə, o da qalib gələr. Döyüş meydanında məğlub olan Ermənistan bu qanunları da pozur, müharibə cinayətləri törədərək, şəhər və kəndlərimizi, dinc əhalini atəşə tutur. Düşmənin xain hücumları nəticəsində çox sayda mülki şəxs, o cümlədən uşaqlar, qadınlar həlak olub və yaralanıb, evlər, çoxmənzilli yaşayış binaları, obyektlər dağılıb.

Oktyabrın 11-də atəşkəs razılaşmasının hələ mürəkkəbi qurumamış döyüş əməliyyatları zonasından 80 kilometr aralıda yerləşən, ərazisində heç bir hərbi obyekt olmayan Gəncəyə - Azərbaycanın ikinci böyük şəhərinə ballistik raket zərbəsi endirildi. Beşi qadın olmaqla, 10 nəfər dinc sakin həlak oldu. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 34 nəfər yaralandı. Ermənistanın bu ağır cinayətinə beynəlxalq birliyin, xüsusən Minsk qrupu həmsədrlərinin səssiz qalması ikili standartların, özgə dərdinə, başqasının faciəsinə laqeydliyinin daha bir təəssüf doğuran təzahürdür.

Düşmənin bu təxribatları, xain hücumları xalqımızın iradəsini qıra bilmir və bilməyəcək. Əsrlər boyu başı min-bir müsibət çəkmiş, tarixə bir çox şanlı səhifələr yazmış Azərbaycan xalqının bu gün bir arzusu var - düşmən tapdağı altındakı torpaqlarını azad etmək.

Qeydlərimi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hər bir azərbaycanlının qəlbində əks-səda verən duyğusal sözləri, duaları ilə tamamlamaq istərdim: Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Qarabağ Azərbaycandır!

***Aslan Aslanov***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri***
***OANA-nın vitse-prezidenti***




# Rossiya-24 telekanalı: "Azərbaycan Ermənistana sonuncu şans verib"

*"Vesti" proqramı üçün hazırlanan süjetdə Azərbaycan həqiqətləri tamaşaçılara çatdırlıb*

***Rusiyanın ən nüfuzlu telekanallarından olan Rossiya-24 kanalının "Vesti" proqamında Qarabağ problemi və bölgədə baş verən hərbi qarşıdurma ilə bağlı geniş süjet yayımlanıb. "Azərbaycan Ermənistana sonuncu şans verib" başlığı ilə yayılan süjetdə məsələyə obyektiv baxış qoyulub və baş verənlər real şəkildə işıqlandırılıb.***

Qeyd olunub ki, Azərbaycan tərəfi işğal olunmuş ərazilərinin azad edilməsi üçün hərbi əməliyyatlara başladıqdan sonra tərəflər arasında xarici işlər nazirləri səviyyəsində Moskvada keçirilən sülh danışıqlarında müvəqqəti atəşkəs haqda razılığa gəlinib, lakin bununla bağlı imzalanan sənəd heç nəyi dəyişməyib.

Süjetdə Azərbaycan prezidenti İlham Əliyevin də fikirlərinə yer verilib. Prezidentin "Qarabağ Azərbaycandır, Ermənistan və onu himayə edən qüvvələr bunu qəbul etməlidir. Bir daha bəyan edirəm ki, danışıqlarında əldə olunmuş razılıq qarşı tərəfdən bu dəfə də pozulsa, Azərbaycan öz ərazilərini güc yolu ilə azad etməkdə davam edəcək. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun. Ermənistana sonuncu şans veririk" fikri süjetdə yer alıb.

Qeyd olunub ki, razılaşmada əldə olunan atəşkəs 1 saat da sürməyib və Azərbaycan tərəfi Ermənistanın atəşi dayandırmadığını, cəbhə xəttindən uzaq şəhərlərə, dinc sakinlərə raket zərbələri endirdiyini bəyan edib. Azərbaycan Ordusu bu hücuma cəbhə bölgəsində rəqibin hərbi texnikalarını vurmaqla cavab verib.

Həmçinin, Ermənistanın beynəlxalq neft və qaz kəmərlərinə də zərbə endirdiyini, lakin Müdafiə Nazirliyinin bu raketlərin HHM sistemləri ilə havada vurulduğunu bəyan etdiyi də qeyd olunub. Həmçinin bildirilib ki, Hərbi Komandanlıq Ermənistanın 200-ə yaxın tankını, onlarla artilleriya qurğusunu və digər hərbi texnbikasını məhv etdiyini açıqlayıb və bunları təsdiq edən videokadrlar yayımlayıb.

Süjetdə Azərbaycan Ordusunun son bir neçə gündə 9 yaşayış məntəqəsini azad etməsi və orada Azərbaycanın dövlət atributlarının bərpa olunduğu da səsləndirilib. Cəbhə bölgəsində Azərbaycan telekanallarından olan Real Tv-nin hərbi müxbirinə birbaşa bağlanan müəllif onun fikirlərinə də yer verib. Hərbi jurnalist qeyd edib ki, Azərbaycan Ordusu Ermənistan Ordusundan fərqli olaraq mülki şəxslərin zərər çəkməməsi üçün mümkün olan hər şeyi edir və yalnız hərbi obyeklərə zərbə endirir.

Süjetdə cəbhə xəttindən 300 km aralıda yerləşən paytaxt Bakıda hərbi komendant saatı rejiminin tətbiq olunduğu və bütünlükdə vəziyyət sabitdir.

Süjetin müəllifi Mixail Fedotov Bakıda da çəkiliş aparıb, sakinlərin fikirlərini çatdırıb. Qeyd olunub ki, qədim, sülhsevər və beynəlmiləl şəhər olan Bakının sakinləri bu məsələdə dövləti tam dəstəkləyir, problemin sülh yolu ilə həll olunmasını, lakin bu mümkün olmadıqda hərbi yolla həllini arzulayırlar.

Süjetdə əməkdar mədəniyyət xadimi Rahib Azərinin fikirlərinə də yer verilib: "Əlbəttə, biz sülh istəyirik, lakin aqressor və işğalçı ölkənin ordusu ya könüllü olaraq torpaqlarımızdan çıxacaq, ya da güc yolu ilə çıxarılacaq".

Tanınmış geramikaçı və rəssam Teymur Məmmədovun qonağı olan jurnalist onun emalatxanasından da kadrlar nümayiş etdirib, sənətkarın fikirlərinə yer ayırıb: "Ən başlıcası odur ki, bizim işğal olunmuş torpaqlarımız azad edilməli, 1 milyona yaxın qaçqın və köçkün evlərinə qayıtmalıdırlar".

Pirşağıda Sovet dövründə tikilmiş sanatoriyada və ətrafdakı köhnə evlərdə məskunlaşan qarabağlı köçkünlərin də qonağı olan jurnalist onların da çətin həyat şəraiti haqda məlumat verib. 20-30 kvadratlıq evlərdə böyük ailələrin çətin şəraitdə yaşadığını qeyd edən jurnalist onlardan birinin- Xocalıdan olan Ceyran Əzizovanın fikirlərini verib: "Həyat yoldaşım və yaxın qohumlarım Xocalıda erməni terroristləri tərəfindən öldürülüb. Biz başqasının evində, başqasının torpağında yaşamaq istəmirik. Biz öz evimizə qayıtmaq istəyirik, öz doğma yurdumuzda yaşamaq istəyirik".

Jurnalist qeyd edir ki, bunun üçün Qarabağ problemi mütləq həll olunmalıdır. Hazırki vəziyyət dinc insanların əziyyət çəkməsinə səbəb olur- deyə reportaj müəllifi vurğulayır.

***Elçin Bayramlı***

*https://youtu.be/kXSDPa1hvqk*

## Bəhruz Quliyevin Gəncə ilə bağlı dedikləri Türkiyə mediasında



SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyevin Ermənistan təxribatçı əməlləri, mülki vətəndaşlarımızın, eləcə də Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binasının gecə saatlarında raket atəşinə tutulması ilə bağlı açıqlaması Türkiyənin nüfuzlu yeniakit.com.tr mətbuatında dərc olunub. SİA-nın verdiyi məlumata görə, dərc olunan yazını aşağıdakı linkə daxil olaraq oxumaq mümkündür.

https://www.yeniakit.com.tr/haber/katil-ermenistana-tepkiler-dinmiyor-1412338.html

# Fransada ömürlük həbs olunan ASALA terrorçusu Qarabağda

*Marsel şəhərindən İrəvana yola düşən Jilbert Minasyan özü ilə birgə muzdlu da gətirib*



Fransada yaşayan erməni, ASALA terror təşkilatının 64 yaşlı üzvü - Jilbert Minasyan Azərbaycana qarşı döyüşmək üçün Ermənistana və oradan da Qarabağ cəbhəsinə getməyi planlaşdırıb. SİA-nın məlumatına görə, bunu Fransanın "Liberation" qəzeti yazır.

Belə ki, Fransanın Marsel şəhərndən İrəvana yola düşən erməni əsilli Fransa vətəndaşı Jilbert Minasyan 1980-ci illərdə türk diplomatlarını terrorizə edən ASALA terror təşkilatının fəal üzvlərindəndir. Məhz həmin illərin sonlarından Qarabağa gələn erməni terrorçusu qanunsuz hərbi birləşmələrin tərkibində Azərbaycana qarşı döyüşlərdə iştirak edib, dinc vətəndaşlarımızın kütləvi qətlində, soyqırımı aksiyalarında aktivliyi ilə seçilib. Lakin daha bir ilginc məsələ budur ki, ASALA üzvü Minasyan hazırda özü ilə birgə Fransadan gətirdiyi muzdlu döyüşçülərlə birgə Qarabağda yollanıb.

Qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyev "Liberation" qəzetində dərc olunan məqalənin linkini sosial şəbəkədəki hesabında paylaşaraq, bu şəxslərin muzdlu olduqlarını və Azərbaycana qarşı döyüşdüklərini bildirmişdi. Dövlətimizin rəsmisi Fransa hökumətini lazımi tədbirlər görməyə çağırmışdı. Digər tərəfdən, Fransa mətbuatı bir müddət bundan əvvəl Strasburqdan Ermənistan ordusuna qoşulan erməni əsilli Fransız vətəndaşı barədə məlumat yayaraq, bu prosesin davamlı hal aldığını yazmışdı.

Xatırladaq ki, hazırkı vaxta qədər xarici ölkələrdə yaşayan bir sıra ermənilər Qarabağa Azərbaycan Ordusuna qarşı döyüşməyə gəlsələr də, onların çoxu artıq öldürülüb. Görünür, Minasyan da digər terrorçular kimi Qarabağa rəşadətli Azərbaycan əsgərinin açacağı sərrast atəşindən gəbərmək üçün gəlib.

Bir məlumatı da xüsusi olaraq qeyd edək ki, Jilbert Minasyan törətdiyi terror aktlarına görə fransada ömürlük həbs cəzasına məhkum edilmiş ASALA üzvlərindəndir. Belə olan halda bir sual yaranır, necə olur ki, ömürlük həbs həyatı yaşayan bir terrorçu "kos-koca" Fransa həbsxanasından başqa bir ölkənin ərazisində döyüşmək üçün buraxılır. Görünür Fransa prezidenti Emanuel Makronun Azərbaycana nifrəti hətta onun dövlət başçısı olmasını da özünə unutdurub...

# Erməni terrorizminə öz adı ilə qiymət verilməlidir!



Erməni cəlladlarının Azərbaycanın Gəncə şəhərində törətdikləri qanlı hadisələr hüquqi baxımından cinayət hadisəsidir. Beynəlxalq hüquq normaları baxımından isə Ermənistan tərəfindən Gəncə şəhərində törədilən cinayətlər əsl mənada terror hadisəsidir. Ümumiyyətlə Ermənistanın terrorçu dövlət olması yeni hadisə deyildir. Bütün XX əsr boyu Ermənistanın 1905-1907-ci, 1918-1920-ci və 1946-1948-ci, nəhayət, 1988-1990-cı illərin hadisələri zamanı da məqsədlərinə çatmaq üçün istifadə etdiyi əsas silah terrordur. Dağlıq Qarabağ ərazisində, o cümlədən Xocalıda da Ermənistanın törətdiyi qanlı cinayətlərin yalnız bir adı vardır: Terrorçuluq!

Son günlərdə erməni vandallarının Gəncə şəhərində törətdiyi vəhşiliklər də erməni terrorçuluğunun növbəti davamıdır. Bu, insanlığa sığmayan qanlı terror hadisələrinə görə ilk növbədə Ermənistanın başabəla baş naziri Nikol Paşinyan və onun ətrafında olub, Gəncə şəhərində terror hadisəsini həyata keçirən cinayətkar xunta məmurlar dəstəsi cavabdehdirlər. Hesab edirəm ki, Paşinyan və onun cinayətkar dəstəsi beynəlxalq məhkəmə qarşısında müttəhim kürsüsündə oturub cavab verməlidirlər.

Beynəlxalq ictimaiyyətin, Minsk Qrupunun Gəncə hadisələrinə biganə qalmaları, obyektiv hüquqi-siyasi qiymət verməmələri, Ermənistana təzyiq göstərməmələri nəticə etibarilə terrorçu dövləti və terrorçuluğu dəstəkləməyə xidmət edir. Möhkəm surətdə inanırıq ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin və xalqımızın apardığı Vətən müharibəsi tam qələbə ilə başa çatacaqdır. Möhtərəm Prezidentimizə və qəhrəman Azərbaycan ordusuna yeni zəfərlər arzu edirəm!

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***

# İsrail Ali Məhkəməsi Azərbaycana qarşı iddianı rədd etdi

"İsrail Ali Məhkəməsi bazar ertəsi Azərbaycana silah satışının qadağan edilməsi barədə yazılı vəsatəti rədd etdi, çünki Ermənistana qarşı müharibə cinayətləri üçün istifadə olunduğuna dair məhkəmə qərarını təsdiqləyən heç bir dəlil yoxdur". SİA-nın məlumatına görə bunu Jerusalem Post yazır. Qəzet yazır ki, İsrailin "Lev Yehudi" (Yəhudi Ürəyi) təşkilatı dünən İsrail Ali Məhkəməsində Azərbaycana silah tədarükünün dərhal dayandırılmasını tələb edərək məhkəməyə müraciət etmişdi. İddia Müdafiə naziri Benny Gantz və Müdafiə Nazirliyinin Xarici əlaqələr şöbəsinin müdiri Rachel Hen-ə qarşı qaldırılıb.

Hüquq müdafiəçisi İtay Mak İsraili "mənəvi səbəblərdən" Azərbaycana silah satışını dayandırmağa çağırsa da, vəsatət qaldırmaq üçün bu kifayət etmədiyindən qəbul edilməyib. E.Cozef Azərbaycandakı silahların 60%-nin İsraildən gəldiyini və Ermənistanla hazırkı münaqişə başlamazdan bir neçə gün əvvəl Azərbaycana silahların potensial hava yolu ilə çatdırılmasına dair məlumatları təqdim edib. Hakim öz növbəsində, Cozefin təqdim etdiyi heç bir şeyin İsrail silahlarının ermənilərə qarşı müharibə cinayətləri üçün istifadə edildiyini sübut etmədiyini qeyd edib. Bu, ən yaxşı halda İsrail silahlarının Azərbaycana satıldığını sübut edir ki, bu da onların anbarda və ya ehtiyatda yalnız müdafiə məqsədi ilə saxlanılması deməkdir.

# İsrailli ekspert: Ermənistan tərəfindən Azərbaycanın Gəncə şəhərinin atəşə tutulması Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır



***Azərbaycan və Ermənistan tərəfindən Moskvada əldə edilmiş razılaşmaya baxmayaraq, Ermənistan atəşkəs rejimini pozmaqla oktyabrın 11-nə keçən gecə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəni ballistik raketlərlə atəşə tutub, nəticədə bir yaşayış binası uçub, dinc əhali arasında ölənlər var.***

Ermənistan tərəfindən Azərbaycanın Gəncə şəhərinin atəşə tutulması Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır. Həmin Konvensiyaya görə, dinc əhalinin həyatını təhlükəyə məruz qoyan hər hansı hərbi əməliyyatlar aparmaq və döyüş əməliyyatları zamanı mülki əhaliyə hərbi zərbələr endirmək qadağandır.

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut bu fikirləri Gəncədə çoxmənzilli evə raket zərbəsi endirilməsi faktı barədə AZƏRTAC-a müsahibəsində söyləyib.

İsrailli ekspert deyib: "Hamımız yaxşı bilirik ki, Ermənistan tərəfi humanitar atəşkəs rejimi müəyyən edilməsi üçün yalvarırdı və Moskvanın vasitəçiliyi ilə belə bir rejim müəyyən edildi. Lakin bu razılaşma qüvvəyə minəndən sonra terrorçu dövlət olan Ermənistan son dərəcə təhlükəli silahlardan, "Toçka-U" operativ-taktiki raket kompleksindən istifadə etməklə qədim Gəncənin əhalisi sıx yaşayan bölgələrini şiddətli raket atəşinə tutub".

Arye Qutun sözlərinə görə, Cenevrə Konvensiyasının qəbul edildiyi və imzalandığı 1949-cu ildən etibarən dünyanın bütün sivil ölkələri mülki əhalini təhlükəyə məruz qoymamaq barədə öhdəlik götürüblər. Arye Qut deyib: "Gecə vaxtı, mülki əhali öz evlərində yatdığı saatlarda onlara qəddar, qeyri-insani və vəhşicəsinə hücum edilməsi terrorizmin qəddar formasından başqa bir şey deyil. Bu əməl dünyanın bütün sivil ölkələri tərəfindən pislənilməli, bu amansız hücumun arxasında dayananların hamısı məhkəməyə cəlb edilməlidir".

İsrailli ekspertin fikrincə, Ermənistanın kriminal rejiminin bütün bu qeyri-insani hərəkətləri bir daha göstərir ki, Azərbaycanın suveren ərazisinin işğaldan yalnız hərbi yolla azad edilməsi strateji əhəmiyyət kəsb edir.

Arye Qut yazır: "Təəccüblü deyil ki, Avropa İttifaqının üzvü olan ölkələr, Avropa Şurasının Parlament Assambleyası, Avropa Şurası və ABŞ Dövlət Departamenti bu ciddi böhranın siyasi və dinc yolla həllində əsla iştirak etmirlər. Yerevanın həyasız və ağlasığmaz geosiyasi davranışı nəzərə alınsa, Avropa gələcəkdə Azərbaycanın iri şəhərlərinin və həssas mülki obyektlərinin terror aktları və raket atəşləri üçün hədəf seçilməsi ilə üzləşəcək. Ermənistan tərəfindən hücumlar nəticəsində Azərbaycanda günahsız insanların qətlə yetirilməsinə beynəlxalq birliyin laqeydliyi şəraitində Ermənistan tərəfindən terror təhlükəsinin qarşısını almağın, Avropada və Qafqazda sülhün və sabitliyin təmin edilməsinin yeganə yolu Azərbaycan silahlı qüvvələrinin erməni işğalına qarşı ardıcıl və sərt tədbirləridir".

İsrailli ekspertin fikrincə, Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz və bu mümkün deyil. Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti istər ölkə daxilində, istərsə də xüsusən xaricdə heç kəslə bu tonda ünsiyyəti özünə rəva görməyib.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Lakin Paşinyan bizə 7 ultimatum təqdim edəndə, o, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və biz bunu etdik. Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi".

Paşinyanın Azərbaycanla bu cür həyasızcasına və utanmadan danışması az imiş kimi, onun Qarabağdakı nümayəndəsi - terrorçu Araik Arutyunyan bəyan edib ki, Azərbaycanı hücum silahları ilə təchiz edən İsrailin hakimiyyət orqanları Qarabağda "soyqırımı"na görə məsuliyyət daşıyır.

Arutyunyan deyib: "2016-cı il Aprel döyüşləri dövründə İsrailin hakimiyyət orqanları yaxşı bilirdilər ki, oradan Azərbaycana göndərilən silahlardan müdafiə məqsədləri üçün deyil, hücum məqsədləri üçün istifadə edilir. Ona görə bu cür bəyanatlar - insanları məsxərəyə qoymaqdır. Əlbəttə, onlar bunu bilir və silah göndərməkdə davam edirlər. Bu "soyqırımı"na görə İsrailin hakimiyyət orqanları da məsuliyyət daşıyırlar. İsrail rəhbərliyinin bu cür addımları sübut edir ki, dünyada pul qazanmaq xatirinə insani və ilahi dəyərlər ayaqlanır".

Ən gülməli və eyni zamanda faciəli məqam budur ki, görün kim kimi terrorçuluqda və soyqırımında ittiham edir? İkinci Dünya müharibəsi dövründə Krımın, Sevastopolun, Feodosiyanın yəhudi əhalisinin məhv edilməsində iştirak etmiş, Hitlerin real əlaltısı olmuş faşist və antisemit Qaregin Njdeyə dörd il bundan əvvəl Yerevanın mərkəzində 6 metr hündürlüyündə heykəl qoyanlar indi yəhudi xalqını soyqırımında və faşizmdə ittiham edirlər? Qarabağda "soyqırımı"na görə onlar bizi - yəhudiləri təqsirkar adlandırırlar?

Bu insanların vicdanı yoxdur. 1992-ci ilin fevral ayında onlar Xocalı şəhərində soyqırım aktı törətdilər, bir gecədə şəhərin dinc azərbaycanlı əhalisini tamamilə məhv etdilər. O dəhşətli fevral gecəsində Xocalıda qəddarcasına törədilmiş bütün cinayətlər sənədlərdə və videomateriallarda, o vaxt Azərbaycanın bu şəhərində olmuş şahidlərin, xarici jurnalistlərin və ekspertlərin ifadələrində əks olunmuş real hadisələrdir. Xocalı sakinlərinin yeganə "təqsiri" onların azərbaycanlı olması idi.

Ermənistanın keçmiş prezidenti, Xocalıda soyqırımı aktını təşkil etmiş və onun həyata keçirilməsində şəxsən iştirak etmiş Serj Sarkisyan xəcalət belə çəkmədən, 1992-ci ilin dəhşətli fevral gecəsində baş vermiş hadisələr barədə həqiqəti söyləyib.

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut Ermənistan silahlı qüvvələri tərəfindən Gəncədə çoxmənzilli evə raket zərbəsi endirilməsi faktı ilə bağlı şərhinin sonunda deyib: Serj Sarkisyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar britaniyalı jurnalist Tomas de Vaala müsahibəsi jurnalistin "Qara bağ: Ermənistan və Azərbaycan sülh ilə müharibə arasında" adlı kitabına daxil edilib. Xocalı faciəsi barədə sualın cavabında Sarkisyan deyib: "Xocalı hadisələrinə qədər azərbaycanlılar düşünürdülər ki, biz onlarla zarafat edirik. Onlar hesab edirdilər ki, erməni xalqı mülki əhaliyə əl qaldıra bilməz. Biz bu stereotipi aradan qaldıra bildik və bu hadisələr baş verdi".

# "Qanunsuz məskunlaşdırmada məqsəd terror qruplaşmalarını Qarabağda yerləşdirmək idi"



"Avropa ölkələrindən erməni əsilli radikalların Dağlıq Qarabağda döyüşməyə gəlməsi heç də təsadüfi deyil, burada bir neçə məqsəd var". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib.

Deputat bildirib ki, 1-ci Qarabağ müharibəsində də ermənilər aktiv şəkildə işğal olunmuş Azərbaycan torpaqlarında qanunsuz məskunlaşma ilə məşğul olurdular və məskunlaşmada da əsas məqsəd terror qruplaşmalarını mülki vətəndaşlar adı altında yerləşdirmək idi: "Onlar terrorçu dəstələri, muzdluları gətirirdilər, guya ki, dinc əhali kimi məskunlaşdırırlar. Burada bir neçə məqam var. Bir məqam da ondan ibarətdir ki, son vaxtlar Avropanın bir sıra dövlətlərindən erməni əsilli radikallar və millətçilərin Dağlıq Qarabağda döyüşlərə gəlməsi intensiv xarakter alıb. Əslində isə burada Avropa dövlətlərinin də öz maraqları var. Əsas məqsədlərdən biri odur ki, Avropa özü də bu erməni əsilli radikallardan canını qurtarmaq istəyir və həmin radikalların ölkədən çıxması üçün şərait yaradırlar".

A.Nağıyev vurğulayıb ki, yəni Avropa dövlətləri erməni millətindən olan radikalları öz ərazilərindən birmənalı şəkildə mədəni surətdə qovurlar: "Onlar da əllərinə silah alıb guya ki, "vətənpərvər" ruhda burada vuruşmağa gəlirlər. Avropa məsələni ikili həll edir, yəni həm öz ərazisindən radikal erməniləri qovur, eyni zamanda həmin adla guya ki, ermənilərə kömək göstərir".

*Aysel Məmmədova*

# Paşinyanın önündə şəkil çəkdirdiyi raket kompleksi məhv edilib!



Ermənistan ötən ilin dekabrında Rusiyadan sifariş verdiyi "Tor-M2KM" zenit-raket kompleksi bu gün Azərbaycan ordusu tərəfindən məhv edilib. SİA-nın məlumatına görə, ötən ilin dekabrında Ermənistanın "Tor-M2KM" zenit-raket kompleksini alması ilə bağlı məlumatı Nikol Paşinyan özü sosial media hesablarından bildirmişdi. Paşinyan hərbi avadanlığın önündə selfi çəkidirərək paylaşmışdı. Paşinyan Ermənistanın "Tor-M2KM" ZRK-nin Hindistandan sonra ikinci istifadəçisi olduğunu da bildirmişdi.

Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi və hərbi texnikası məhv edilib. Bunlardan biri də "Tor-M2KM" raket kompleksidir. Bundan əlavə dünən humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

# Azərbaycanda 32 məktəb erməni təcavüzü nəticəsində dağıntıya məruz qalıb



Azərbaycanda erməni təcavüzü nəticəsində 32 təhsil müəssisəsi dağıntıya məruz qalıb. Təhsil Nazirliyindən SİA-ya verilən məlumata görə, düşmən təxribatı nəticəsində Tərtərdə 12, Ağdamda 11, Gəncədə 5, Füzulidə 4, Ağcabədidə 1, Bərdədə 1 məktəb dağıntıya məruz qalıb. Düşmən təcavüzü nəticəsində 3 şagird həlak olub, 15 Gəncə şagirdi yaralanıb.

# Baş Prokurorluq: Erməni təxribatı nəticəsində ölən dinc sakinlərin sayı 42-yə çatdı




Azərbaycanın Baş Prokurorluğu sentyabrın 27-dən bu günə qədər Ermənistan silahlı qüvvələrinin dinc sakinlərimizə qarşı törətdiyi təxribatlar nəticəsində ölən və yaralananların siyahısını açıqlayıb. Baş Prokurorluqdan SİA-ya verilən məlumatda bildirilir ki, bu günə qədər ermənilərin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində 42 nəfər dinc sakin ölüb. Hadisələr nəticəsində 206 nəfər sakin xəsarət alıb, 1479 ev, 66 çoxmənzilli yaşayış binası, 241 mülki obyekt isə yararsız vəziyyətə düşüb.

# Araik Arutunyan döyüşməyə adam tapa bilmir

## *Düşmən tərəfində panik vəziyyət*

Axır günlərini yaşaması heç bir şübhə doğurmayan qondarma "dqr"in saxta "prezidenti" Araik Arutunyan sentyabrın 27-dən etibarən, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi üçün başlatdığı əks-hücum əməliyyatlarının ilk günündən özünün "qəhrəmanlıq" obrazını canlandırmaqdan ötrü ön cəbhədə erməni əsgərləri ilə fotolar çəkdirib, sosial şəbəkələrdə yayırdı. Lakin erməni qoşunlarının Qarabağda aldıqları ardıcıl, ağır və sarsıdıcı məğlubiyyətlərindən sonra cəbhənin düşmən tərəfində panik vəziyyət yarandı. Daha dəqiq desək, cəbhənin müxtəlif istiqamətlərində əldə etdiyimiz hərbi uğurlarımız nəticəsində düşmənin hərbi texnikaları ilə yanaşı, canlı qüvvəsi də məhvə uğradı və hazırda uğramaqda dava edir. Hərbi əməliyyatların başlamasından cəmi iki həftə keçməsinə baxmayaraq, indi "dqr"də hesaba alınan düşmən leşləri arasında daha çox könüllülərin, yəni yaşlı nəslin nümayəndələri görünür.



**Separatçıların terrorçu lideri: "Əziz həmvətənlər, vəziyyət ölümcüldür"**

Bu isə sübut edir ki, Ermənistan çağırışçıları artıq cəbhəyə getməkdən boyun qaçırırlar. Əbəs deyil ki, artıq İrəvan və s. kimi şəhərlərdə çağırışçı ovuna başlanılıb. Hətta hərbi xidmətə yaşı çatmayanlar, yararlı olmayanlar belə küçələrdəcə tutularaq zorla maşınlara mindirilir, heç bir hərbi hazırlıq görmədən Qarabağa göndərilirlər. Orada isə əlbəttə ki, güclü Ordumuz qarşısında heç bir mənada tab gətirə bilmirlər və...

İndi Araik Arutunyanın sosial şəbəkələrdə tamamilə fərqli şəkilləri ictimailəşdirilir. Birinci Qarabağ müharibəsində azərbaycanlıların qanını tökən, soyqırımı törədən könüllülərin cəbhəyə getmələri üçün yalvarır. Bu, sübut edir ki, ümumilikdə Ermənistanda vəziyyəti daha da böhranlaşıb. Texniki təchizatla yanaşı, canlı qüvvə də tükənir. Düzdür, hazırda humanitar yardımlar adı altında düşmən ölkəyə qeyri-qanuni şəkildə silah-sursatlar göndərilir, amma bu da davamlı ola bilməz. "Əziz həmvətənlər, vəziyyət ölümcüldür... Birinci Qarabağ müharibəsinin iştirakçıları mübarizədə iştirak edirlər",- deyə separatçı rejimin rəhbəri bu vasitə ilə ağır durumda olduqlarını etiraf edir.

***Rövşən RƏSULOV***

# "Paşinyanın bu addımı Gürcüstanda hiddətə səbəb oldu"



"Zatı, kökü, mənşəyi, vətəni olmayan ermənilər bu ağır günlərində, Azərbaycan Ordusunun onların başına zərbələr endirdiyi, işğal etdikləri ərazilərimizdən it kimi qovulduqları bir vaxtda, dövlətlərini itirmək təhlükəsi ilə üzləşdikləri dönəmdə yenə öz amplualarındadırlar. Yalanları gerçək adı ilə dünyaya sırımağa çalışır, həqiqətləri manipulyasiya edir, tarixi saxtalaşdırırlar". Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib. Onun sözlərinə görə, dünən işğalçı dövlətin baş naziri Paşinyan "Facebook" səhifəsində qonşu Gürcüstanın Cavaxetiya adını erməniləşdirərək "Cavakx" adı ilə foto paylaşıb. Guya həmin fotodakılar Cavaxetiyada yaşayan ermənilərdir və Qarabağda vuruşan soydaşlarına dəstək ifadə edirlər. Paşinyanın bu addımı Gürcüstanda hiddətə səbəb oldu. Məlumat üçün bildirmək istəyirəm ki, Cavaxetiya Gürcüstanın 9 əsas bölgələrindən biridir. Onun mərkəzi hissəsi Axalkalaki XVI əsrdən 1828-ci ilə qədər Osmanlı imperiyasının tərkibində olmuşdur. Ruslar Qafqazı işğal etdikdən sonra, oradakı müsəlman əhalisini Osmanlı ərazisinə sürgün etmiş, onların yerinə Ərzurumdan erməniləri köçürmüşdür. Bu səbəbdən Gürcüstanın həmin tarixi torpaqlarında ermənilərin sayı üstünlük təşkil edir. Ermənilər Qarabağa iddia etdikləri kimi, Gürcüstanın bu ərazilərini də özününkü hesab edirlər. İrəvanda fəaliyyət göstərən və Cavaxetiyada da özəkləri olan"Cavakx," cəmiyyəti, "Yerkir" birliyi, Virk partiyası, həmçinin yerli "Cavakx" hərəkatı hazırda bu bölgədə yaşayan erməniləri Gürcüstandan muxtariyyət almağa, daha sonra isə ayrılmağa təhrik edirlər. Gürcü dostlarımıza ehtiyatlı olmağı məsləhət görürük. Bəri başdan tədbirli olsunlar, çünki fürsət düşən kimi, ermənilər Qarabağdakı qanlı cinayətlərini, şübhəsiz, Cavaxetiyada da təkrarlayacaqlar. Ümumiyyətlə, ermənilər coğrafiyamızdakı bütün dövlətlərə ərazi iddialarındadırlar. Ermənistan Qafqazda sülhə, sabitliyə, ciddi əngəldir. Bu şeytan yuvası olmasaydı, Rusiyanın regiondakı dayaqları da olmazdı. Deməli, Azərbaycanın, Gürcüstanın ərazi bütövlüyünün pozulmasında Ermənistan bir alətdir. 2008-ci ildəki Gürcüstan-Rusiya müharibəsində Gürcüstanı bombalayan rus təyyarələri, məhz Ermənistandan havaya qalxırdılar. Yeri gəlmişkən, həmin anlarda Azərbaycan Gürcüstana hər cür dəstək verdi. Erməni seperatizminə, tarixi saxtalaşdırmaq cəhdlərinə və təcavüzünə qarşı bölgəmizin bütün xalqları və dövlətləri birləşməlidirlər. Əks halda, bu şər ölkəsi tarix boyu böyük güclərin əlində alət olaraq təhlükəsizliyimizi təhdid edəcək".

***Ceyhun Rasimoğlu***

# Lapşin kimi simasız rəzillərin müdafiəsinə möhtac Ermənistan...



Bir zaman anasının və özünün yalvarışları müqabilində, qanun pozuntuları, səhvləri ola-ola Azərbaycan tərəfindən əfv olunaraq buraxılan Lapşin kimi bir blogger nadürüstlüyünü, qanmazlığını yenə də gizlədə bilməyib. SİA xəbər verir ki, bir zaman Azərbaycan tərəfindən mərhəmət olunaraq buraxılan blogger yenə də öz Facebook səhifəsində sərsəm fikirlər paylaşmağa başlayıb.

Quyruğu qapı arasında olan zaman özü və anası tərəfindən yalvarışlarla mərhəmət diləyən və ona sığınan biri indi kənardan Ermənistanın müdafiəsinə qalxırsa, bu onun simasızlığının, rəzilliyinin göstəricisidir. İndi Azərbaycanın tragikomik vəziyyətdə olduğunu iddia edən blogger güzgüdə özünə və az qala hər şeyini itirən Ermənistana, onun müdafiəsinə qalxdığı işğalçı ölkəyə baxsın görsün bu vəziyyətdə kimdir.

Azərbaycan Ordusunun Hadrutu geri qaytarmasını yalanlamağa çalışan blogger bunu sosial şəbəkədə öz hesabında yazaraq özünü rüsvay etməklə yanaşı, tərəfini tutmaq istədiyi Ermənistanı da çox gülünc günə qoyur. Əvvəla, geri qaytarılan ərazilər barədə informasiyaları daim öz daxili auditoriyasından gizlədən, yalanı bayraq edən Ermənistan tərəfidir və bu öz təsdiqini dəfələrlə tapıb, eləcə də işğalçı ölkənin vətəndaşları bunu özləri də görürlər. Digər tərəfdən, Lapşin ikiüzlü şəkildə, riyakarcasına ermənilərin tərəfini tutmaqla, onların özləri kimi təhrif etməklə özünün də erməni xisləti olduğunu nümayiş etdirir. Bu həm də erməni cəmiyyətinin özü üçün də xoşagələn fakt deyil əslində. Çünki, azərbaycanlılardan bir zaman mərhəmət diləyənin erməniləri müdafiə etməsi erməni cəmiyyəti üçün başucalığı, yaxud haqlı olma anlamına gələ bilməz. Burada bir məqam da diqqəti cəlb edir ki, Ermənistan məhz Lapşin kimi simasızların, rəzillərin belə müdafiəsinə möhtac qalıb.

İndi bütün dünya ictimaiyyəti Azərbaycan Ordusunun zəfərlərini, əldə etdiyi uğurları diqqətlə izləyir və geri alınan torpaqlarda bayraqlarımızın dalğalanması Lapşin kimi boşboğazların fikirlərini tamamilə alt-üst və mənasız edir. Görünür, yalançılar, riyakarlar özlərinə yeganə məkan olaraq Ermənistanı seçir və bu da təbiidir. Çünki, Lapşinlərin ampulası məhz Ermənistan olduğu kimi, Ermənistanın da müdafiəçisi elə Laşşin kimi simasız, rəzil və yalançılar ola bilər.

***İnam Hacıyev***

# Ermənistan cəmiyyətində ruh düşkünlüyü sürətlə artır



Nikol Paşinyan və onun hakimiyyəti ardıcıl olaraq, özü də sona qədər erməni xalqını aldadacağını düşünməkdə bərk yanılıb. Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan informasiyalar belə təsdiq edir ki, bu işğalçı ölkədə ruh düşkünlüyü kəskin şəkildə artıb və artmaqda da davam edir. SİA Ermənistana məxsus mediada yayımlanan məlumatlara istinadən xəbər verir ki, Ermənistan Müdafiə Nazirliyi dünənə qədər cəmi 430 əsgərinin öldüyünü açıqlamışdısa, artıq dünən axşama doğru 3 siyahını birdən elan etmək məcburiyyətində qalıb, hansı ki, 1-ci siyahıda 51, ikinci siyahıda 45, üçüncüdə isə 17 hərbçisinin ölümünü təsdiqləyib. Bir sözlə, yalnız bir gün içində ölənlərin rəsmi sayıının 113-ə, ümumilikdə isə 532-yə çatdığını bildirib.

Məsələ burasındadır ki, ermənilər özləri də bu işğalçı ölkənin aldadıcı rəsmi məlumatlarında əlavə, döyüş kadrlarını, Azərbaycan tərəfinin dəqiq zərbələrini, işğalçı tərəfin isə uğursuz əməliyyatlarını izləyirlər. Məhv edilən hərbi texnika və sursat barədə də məlumatları erməni cəmiyyəti öyrənir və anlayır ki, Ermənistanın itgiləri hədsiz dərəcədə çoxdur və bu məğlubiyyət deməkdir.

Xatırladaq ki, erməni sosial şəbəkə istifadəçilərinin hazırda ən çox diqqət etdiyi məqam ölən və itkin düşən əsgərlərdir və bunu Ermənistan mətbuatı açıq şəkildə etiraf edir. Etiraf edir ki, erməni sosial şəbəkə istifadəçiləri minlərlə itkindən xəbər gözləyir və hər yerdə bu əsgərlərin fotoları yayılır, onların taleyinin necə olduğunu öyrənmək istəyirlər...

# "İrates": "Müxalifətçi deputatlar zalı ağır kədərlə tərk ediblər"




Ermənistanın "İrates" qəzeti yazır ki, baş nazirin və XİN rəhbərinin iştirakı ilə parlament şurasında səslənən rəsmi fikirlər cavablardan daha çox suallar yaratdı. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, məhz bundan sonra müxalifətçi deputatlar zalı pəjmürdə şəkildə tərk ediblər. SİTAT: "Müxalifətçi deputatlar zalı ağır kədərlə tərk ediblər, belə ki, vəziyyət ətrafında baş verənlərdən, həmçinin daxili siyasət messenclərindən narahat olublar". Erməni nəşri yazır ki, belə bir çətin aralıqda onlar hər hansı bir şərh vermək fikrindən uzaq dayanırlar, lakin hakimiyyət bir çox suallara dəqiq cavablar verməli olacaq.

***Rövşən***

# Gəncənin bombardman edilməsi erməni faşizminin eybəcər sifətini göstərir

## *Prezident İlham Əliyev: "Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi"*

***Mövcud fakt və reallıq ondan ibarətdir ki, son 200 ildə regiona gəlmə millət olan ermənilərə xarici havadarlarının göstərdiyi hərbi-siyasi dəstək hesabına 2 milyona yaxın azərbaycanlı qətlə yetirilib, Zəngəzur, Göyçə, İrəvan və digər qədim yaşayış məskənlərimiz işğala məruz qalıb. Sovetlər İttifaqının dağılması ərəfəsində yenidən Azərbaycan torpaqları hesabına ərazilərini genişləndirməyə ümid bəsləyən ermənilər Dağlıq Qarabağda işğal və qətliam siyasəti həyata keçirməyə başladı.***

O zaman SSRİ rəhbərliyinin daha çox erməni maraqlarından çıxış etmələri erməniləri Azərbaycanın ayrılmaz hissəsi olan və respublikamızın tərkibində 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin zor gücünə qopardılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçib. Gorbagor Zori Balayanın 1981-ci ildə erməni dilində Yerevanda, 1984-cü ildə rus dilində Moskvada çap edilmiş "Ocaq" kitabında Azərbaycana qarşı əsassız ərazi iddialarının irəli sürülməsi, 1987-ci ilin noyabrında Mixail Qorbaçovun müşaviri Abel Aqanbekyanın Parisdə "L'Humanite" qəzetinə müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsini dəstəkləməsi, 1987-ci ilin payızında Yerevanda təşkil edilmiş mitinqlərdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı zorakılığa çağırışlar, ərazi iddiaları bu fəaliyyətin tərkib hissələri olub. Beləliklə, 1987-ci ilin sonlarından başlayaraq Ermənistan SSR-dən 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından didərgin salındı, 220 nəfər erməni vəhşiliyinin qurbanı oldu, 1154 nəfər isə yaralandı.

### Vəhşi ermənilərin barbar əməlləri

Xarici ölkələrdən hərbi-siyasi dətək alan terrorçu Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı işğal etmək üçün geniş fəaliyyət başlamışdır. Bu siyasət son dərəcə qəddar və qaniçən formada həyata keçirliyi üçün minlərlə azərbaycanlı vəhşicəsinə öldürüldü, yaralandı, yüz minlərlə insan öz doğma ev-eşiyindən qaçqın və köçkün həyatı yaşamağa məcbur edildi. Maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Dağlıq Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində çoxsaylı muzeylər, məscidlər, abidələr dağıdılıb. İlk insan məskənlərindən olmuş tarixi Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları viran edilib. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalıb. Bunlarla yanaşı, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi, 103200 ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 videomaqnitafon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal olunmuş ərazilərdə qalıb.

### Cəbrayıda dalğalanan üçrəngli bayrağımızın Şuşada da dalğalanması günü uzaqda deyil

Bir sözlə, birinci Qarabağ müharibəsi dövründə ermənilər Azərbaycan xalqına qarşı dünyada görünməyən vəhşiliklər, qətliamlar həyata keçirib, maddi və mənəvi ziyan vurub. Ancaq artıq dövr və zamn dəyişib, Azərbaycan hazırki məqmda ötən əsrin 90-cı illərinin Azərbaycanı deyil. Bu isə, Dağlıq Qarabağın işğaldan azad edilməsi üçün ölkəmizə yeni üstünlüklərin və imkanların verilməsi deməkdir. Gözlənilən an yetişdi və sentyabrın 27-dən başlayan hərbi əməliyyatların qısa dönəmində güclü və qüdrətli Azərbaycan ordusu ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmrinə əsasən bir sıra strateji yüksəklikləri və əraziləri işğaldan azad etdi. Eyni zamanda, işğalçı Ermənistanın yüzlərlə hərbi-texniki vasitələri, canlı qüvvəsi məhv edildi. Hərbi ekspertlərin qeyd etdiyi kimi artıq Ermənistan tam şəkildə məğlubiyyətə uğrayıb və bir neçə günə ağ bayraq qaldırmağa məcbur olacaq.



Bəli, bir zaman iddialı və hikkəli çıxışı ilə diqqət mərkəzinə çevrilməyə çalışan Ermənistanın baş naziri Nikol Paşinyan artıq rəzil və zəllil bir formaya düşüb, dünya ölkələrinə yalvarış dolu müraciətlər etməklə cəbhədə atəşkəsə nail olmağa çalışır. Bununlada yenidən danışıqların bərpa olunmasına ümid bəsləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində "həllin danışıqlar vasitəsilə olduğunu düşündüyünü, lakin danışıqların məğzi olmalıdır" deyə bildirib: "Ermənistanın "Qarabağ Ermənistandır" deməsi, - onların baş naziri bunu söyləyib, - münaqişənin həlli prinsiplərini faktiki olaraq məhv etdi. Çünki həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa olan ATƏT-in Minsk qrupu - onlar danışıqlar zamanı illər ərzində münaqişənin həlli üçün prinsipləri hazırlayıblar və regionumuzda dayanıqlı sülhə nail olmaq üçün birinci addım işğal olunmuş ərazilərin boşaldılmasıdır. İki il bundan əvvəl dövlət çevrilişi və Corc Soros tərəfindən maliyyələşdirilmiş "inqilab" nəticəsində hakimiyyətə gəlmiş Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyəndə o danışıqların məğzini məhv edir. Danışılası heç bir şey qalmır. Buna görə Ermənistanda hakimiyyətdə olan baş nazir öz destruktiv davranışı, hərbi toqquşmaya gətirib çıxarmış hərəkətləri barədə ciddi şəkildə düşünməlidir. Biz 28 ildir ki, danışıqlar prosesində idik və mənim Ermənistanın iki sabiq prezidenti ilə danışıqlar təcrübəm var idi. Biz həll yolunu tapmaq üçün nisbətən məqbul şəkildə işləyirdik, biz kiçik addımlar atırdıq. Biz vasitəçilərlə birlikdə münaqişənin həlli üçün əsas prinsipləri işləyib hazırlayırdıq. Sonra iki il bundan əvvəl siyasi həyatda heç bir təcrübəsi olmayan, bütün həyatı boyu hətta kiçik bir şirkətin rəhbəri olmayan, geosiyasət, beynəlxalq münasibətlər haqqında heç bir anlayışı olmayan, küçədən olan bir şəxs hakimiyyətə gəlir və öz ölkəsini dağıtmağa başlayır. İndi Ermənistan böhran vəziyyətindədir. O, əsas siyasi partiyanın rəhbərini həbs edir. O, mənim müxtəlif dövrlərdə danışıqlar üzərində çalışdığım iki sabiq prezidentə qarşı cinayət araşdırmasına başlayır. O, tamamilə despotik bir rejim yaradır və danışıqları məhv edir və biz nə etməliyik?". Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev müsahibəsində onuda bildirib ki, N. Paşinyan azərbaycanlılara qarşı təhqiramiz bəyanatlar verir, o, təhrikedici addımlar atır və vasitəçilərin özlərini, yumşaq desək, bu qəribə davranış çox çaşdırmışdır: "O, danışıqlar prosesini məhv edir. Ona görə mən hesab edirəm ki, danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri "Qarabağ Ermənistan deyil" deməlidir, çünki "Qarabağ Ermənistandır" ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o, bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik".

### Ermənistan güclü və qüdrətli Azərbaycan ordusunun qarşısında məğlub olacaq

Bir sözlə, Ermənistan güclü və qüdrətli Azərbaycan ordusunun qarşısında məğlub olduqca, dünyadakı havadarlarına daha çox yalvar-yaxar edir. Həmdə, Azərbaycanın uğurlarına kölgə salmaq üçün müxtəlif yalanlar uydurur. Bildirir ki, Türkiyə Azərbaycana silah-sursat və canlı qüvvə baxımından yardım göstərir. Söz yox ki, Türkiyə-Azərbaycan dost, qardaş ölkələrdir və hər zaman bir-birinə arxa, dayaqdırlar. İşğal altında olan Dağlıq Qarabağ məsələsində Türkiyə Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Bu günlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata açıqlamasında da bildirib ki, Türkiyə olaraq, özümüzü "iki dövlət, tək millət" olaraq gördüyümüz azərbaycanlı qardaşlarımıza bütün imkanlarımız və bütün qəlbimizlə dəstəkləməyə davam edəcəyik: "Qafqaz regionunda davamlı sülhün bərqərar olmasının yolu ermənilərin işğal etdikləri hər qarış Azərbaycan torpağından çıxmasından keçir. Azərbaycanlı qardaşlarımızın işğal altındakı ərazilərini azad etmə məsələsində yanlarında olduğumuzu bir daha qeyd edirəm. Xüsusilə Minsk üçlüyü deyilən ABŞ, Fransa və Rusiya 30 ildir bu problemi gözardı etdikləri üçün bu günlərə yansıyan bu vəziyyətlə bağlı atəşkəs çağırışı etmələri hər şeydən öncə qəbuledilməzdir. Bir şeymi istənilir, onda işğalçıların bu torpaqlardan çıxmaları lazımdır ki, burada bir nəticə əldə olunsun".

Görünən odur ki, Ermənistan hər cür alçaq hiylələrə və məkrli vasitələrə əl atsada cəbhədəki, uğursuzluqdan qurtula bilməyəcək. Azərbaycanın qalibiyyət bayrağı Şuşada, Ağdamda, Füzulidə, Xocalıda, Xankəndində, Kəlbəcərdə, Laçında, Zəngilanda, Qubadlıda dalğalanacaq. Hazırki, məqamda müzəffər Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur. Azərbaycan Baş Prokurorluğu tərəfindən yayılan məlumata əsasən, 27 sentyabrdan, döyüş əməliyyatlarının başlamasından bu günə qədər, Ermənistan tərəfindən həyata keçirilən hücumlar nəticəsində 41 mülki vətəndaş həlak olub, 205 vətəndaş xəsarət alıb. İnfrastruktura gəldikdə, 146 mülki bina, 57 çoxmərtəbəli korpus, 1 165 ev zədələnib. Oktyayabrın 11-də Moskvada hümanitar atəşkəs razılaşması əldə olunduqdan sonra terrorçu Ermənistanın Gəncə şəhərindəki çoxmənzilli binaya raket atması nəticəsində 10 nəfər həyatını itirmiş, 34 nəfər yaralanmışdır. "Gəncə şəhəri bombardman edilmişdir. Şəhər "Toçka-U" raketləri ilə atəşə məruz qalmışdır və bunun nəticəsində mülki vətəndaşlar həlak olmuş və yaralanmışlar. Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. Artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır". Bu sözləri Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsində söyləyib.Dövlətimizin başçısı deyib ki, dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər: "Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi".

Bir sözlə, Ermənistan rəhbərliyi, xüsusilə də, baş nazir Nikol Paşinyan və onun terrorçu əqidə dostları yaramaz və şərəfsiz siyasətləri ilə erməniləri məhvə sürükləyirlər. Təbii ki, ermənilər ayağa qalxıb, bu küçə adamı olan Paşinyanı hakimiyyətdən silib, atmasalar onları çox böyük fəlakət gözləyir. Çünki, Dağlıq Qarabağda artıq mülki vətəndaşlar qalmayıb, əsgərlərdə kütləvi şəkildə gəbərirlər. Bütün bunlar Ermənistanın gənc nəslinin tamamilə sıradan çıxması və ölkənin iqtisadi cəhətdən çökməsi deməkdir. Nəzərə almaq lazımdır ki, müharibə hər gün milyonlarla dollar xərc deməkdir. Başqa dövlətlərin ianəsi hesabına dolanan yoxsul Ermənistan üçün bu iqtisadi tənəzzül deməkdir. Bu baxımdan Ermənistan Dağlıq Qarabğda acı məğlubiyyətlə üzləşmıklə yanaşı, qondarma və yalançı dövlət müstəqlliyindən də məhrum olacaq.

**İ.ƏLİYEV**

# Ermənilərin tətbiq etdikləri qadağan olunmuş kasetli bombalar

*Düşmən qəbul edilən bütün konvensiyaları pozur, beynəlxalq aləm isə susur!*



***Sentyabrın 27-dən başlayaraq, Ermənistan silahlı qüvvələri ilə qondarma "dqr" hərbi birləşmələrinin Qarabağ cəbhəsində törətdikləri silahlı təxribatların ardınca, Azərbaycan Ordusu düşmənə layiqli və sarsıdıcı cavablar verməkdə davam edir. Uğurlu əks-hücum əməliyyatları sayəsində 30 ildir işğal altındakı torpaqlarımız, kəndlərimiz və qəsəbələrimiz, rayonların bir hissəsi tədricən düşmən tapdağından azad edilməkdədir.***

## Xain hücumlar nəticəsində onlarla insanımız həyatlarını itirib, yaralanıb, uşaqlar valideynlərini itirib

Məhz Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşündən və aldıqları ardıcıl məğlubiyyətlərindən hiddətlənən düşmən artıq ümumdünya səviyyəsində qəbul edilmiş bütün konvensiyaları pozmaqla vəhşilik, faşizm və dövlət terroru siyasətini həyata keçirməyə başlayıb. Buna sübut isə Gəncə, Mingəçevir, Naftalan və s. cəbhədən kilometrlərcə uzaq olan şəhərlərimizin, dinc sakinlərimizin raket zərbələrinə məruz qoyulmalarıdır. Bu xain hücumlar nəticəsində onlarla insanımız həyatlarını itirib, yaralanıb, uşaqlar valideynlərini itirib. Bu barədə dünyanın bir çox nüfuzlu media qurumları informasiya verməkdə davam edirlər.

Lakin təəssüf ki, tərəfləri "atəşkəsə" çağıran bir sıra beynəlxalq təşkilatlar nədənsə, əsl səbəbkarı - işğalçını törətdiyi çirkin, mənfur əməllərinə görə qınamırlar, Ermənistana qarşı hər hansı tələb olunan sanksiyaların qəbul olunması üçün bəyanatlar səsləndirmirlər. Halbuki bu gün Ermənistan Azərbaycan xalqına qarşı yeni Xocalı, Bağanıs Ayrım və s. kimi soyqırımlarını həyata keçirmək məqsədini daşımaqdadır. Bütün bu kimi danılmaz faktların yerinə isə, elələri də tapılır ki, əllərinə düşən ən kiçik fürsətdən yararlanaraq, Azərbaycanın haqlı, ədalətli mübarizəsinə qara yaxmağa çalışırlar, bununla da erməni çörəyi ilə bəsləndiklərini açıq-aşkar etiraf edirlər.

## Düşmənin işlətdiyi daha bir qadağan olunmuş silah isə kaset bombalarıdır

Amma məsələnin daha bir tərəfi barədə də bir sıra qeydlərimizi aparmaq istərdik. Misal üçün, erməni tərəfi hazırkı müharibədə Fizuli rayonu ərazisinə fosfor tərkibli qadağan olunmuş raket atmışdı. Xoşbəxtlikdən həmin raket də bir çoxları tərəfindən zay çıxaraq partlamamışdı. Ancaq həmin raket partlasaydı, söz yox ki, çox sayda mülki əhalimiz bunun ağır nəticələrini yaşaya bilərdi.

Düşmənin işlətdiyi daha bir qadağan olunmuş silah isə kaset bombalarıdır. Bu sursat hərbi aviasiya, artilleriya və raket qurğuları vasitəsi ilə istifadə olunur. Tərkibi canlı qüvvəni məhv etmək üçün metal elementlərdən ibarətdir. Partlayış uçuş zamanı baş verir və konteynerlər dağılaraq böyük ərazini əhatə edir. Bir kaset bombasında 600-ə qədər konteyner ola bilər. Hazırda kaset bombasından 107 ölkə imtina edib. Bu barədə konvensiya 2008-ci ilin 30 may tarixində qəbul edilib.

Maraqlıdır, təcavüzkar Ermənistanın dinc əhalimizə qarşı konvensiya ilə qadağan olunmuş kaset bombaları tətbiq etməsinə də göz yuman bir sıra beynəlxalq qurumlar "atəşkəsə gəlin" deməklə niyə bu qədər riyakarlığa, korluğa qapılırlar? İnanaq və ümid edək ki, artıq beynəlxalq aləm də erməni xainliyinin, xislətinin gerçək tərəfini anlayacaq və onların vəhşiliklərinə terror siyasətlərinə "dur" deyəcək.

**Rövşən RƏSULOV**

## Eldəniz Səlimov: "Ermənistan dövləti faşist dövlətidir"

***"İstər atəşkəs dönəmində, istərsədə hərb vəziyyətdə Ermənistan faşist siyasəti aparıb. Paşinyanın siyasəti beynəlxalq aləmdə yalnız terror əməlləri ilə tanınmalıdır. Ermənistan dövləti faşist dövlətidir, terror dövlətidir. Gəncədə mülki əhalinin qətl edilməsi bunu bir daha sübut edir". Bunu SİA-ya açıqlamsında millət vəkili Eldəniz Səlimov deyib.***



Onun sözlərinə görə, humanitar atəşkəsin ermənilər tərəfindən pozulması o deməkdir ki, onlar verdikləri sözün arxasında durmayırlar və bununla da özlərini daha pis vəziyyətə saldılar: "Ermənistan bütün cəbhə boyu məğlubiyyətə uğrayır. Ona görə də, Paşinyan rejimi öz acısını Azərbaycanın dinc əhalisindən çıxarmağa çalışır. Gəncəni bombalamaq əmri şəxsən Paşinyanın əmridir, bu da onun acizliyindən və ağır psixoloji durumda olmasından irəli gəlir. Ermənistan xarici dəstək axtarır. Bu ölkə öyrəşib ki, dünya erməniliyi onun hər bir addımına bəraət qazandıracaq, Azərbaycanı təcavüzkar kimi göstərəcək. Lakin müasir internet, düzü olduğu kimi təqdim etmək və yalanı təkzib etmək imkanı verir".

E.Səlimov bildirdi ki, Azərbaycan həm beynəlxalq hüquq, həm də ədalət baxımından haqq yolundadır: "Azərbaycan mülki əhali ilə müharibə aparmır. Biz Gəncnin bombardmanının əvəzini döyüş meydanında verəcəyik. Biz saat 12-dən qüvvəyə minmiş atəşkəs rejiminə sadiqik, lakin göründə ki, qarşı tərəf buna riayət etmir, biz də özümüzü müdafiə etməliyik. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin daim vurğuladığı kimi, "biz öz torpaqlarımızda vuruşuruq, Qarabağ Azərbaycandır!" Bu sözlər reallığını diplomatiyanın gedişində də öz əksini tapır. Çünki biz heç bir zaman beynəlxalq hüquqları pozmur və insani dəyərlərə qiymət verərək müharibəmizi aparırıq. Ordumuz doğma torpaqlarımızın azadetmə missiyasını davam etdirir. Azərbaycan xalqı öz haqq müharibəsini aparır. Torpaqlarımızın azad olunmasında israrlıyıq və bu missiyadan xalqımızı heç kəs döndərə bilməz. Azərbaycan öz torpaqlarını geri alır, alacaqda. Qarabağ Azərbaycandır!".

**Gülyana**

## "Terror aktında məsuliyyəti təkcə Ermənistan daşımır"

***"Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə mülki obyektləri raket atəşinə tutması beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması deməkdir. Mülki əhali heç bir halda hərbi əməliyyatların hədəfinə çevrilə bilməz. Azərbaycan orudusu sonuna qədər Cenevrə Konvensiyasının bütün tələblərini yerinə yetirib və yetirir". Bunu SİA-ya açıqlamasında politoloq Nəzakət Məmmədova deyib.***



Onun sözlərinə görə, Azəbaycan tərəfi işğal altında olan mülki əhalinin belə sağlamlığına hər hansı xətər gəlməməsi üçün dəfələrlə xəbərdarlıq edib və əhalinin həmin döyüş zonasından çıxması üçün dəhlizlər yaradıb: "Bəs erməni tərəfi nə etdi? Döyüş bölgəsindən kənar yerlərdə dinc əhaliyə qarşı yeni soyqırım aktı törətməyə başladı. Bir sözlə zaman dəyişsə belə, erməninin terrorçu xisləti dəyişməz olaraq qalır. Gəncənin Ermənistanın Berd rayonundan atəşə tutulması qəbuledilməz bir vəhşilik aktıdır. Ermənistanın bunu etməkdə bir sıra məqsədləri var. Birincisi Azərbaycan əhalisi arasında xof yaratmaq, ikincisi itirilmiş ərazilərin ört-bardır edilməsi üçün öz əhalisi arasında manipulyasiya etmək və ən əsası isə Azərbaycanı da eyni addıma sövq etməklə 3-cü ölkəni müharibəyə daxil etməkdir. Lakin Azərbaycan əsla bu təxribtlara uymur. Cənab Prezidentin də qeyd etdiyi kimi Azərbaycan lazımı cavabı hərb meydanında verir".

N.Məmmədova vurğulayıb ki, Ermənistan öz növbəsində müharibə cinayətləri işləməkdə davam edir: "Bu gün bu hadisələr dünyanın gözü qarşısında baş verir. Azərbaycan erməni terroru ilə əlaqədar lazımı bütün faktları toplayır və bu faktlar beynəlxalq aləmdə adiyyatı qurumlara göndəriləcəkdir. ATƏT-in Minsk Qrupunun bu olaylara susması çox təbiidir. Elə bu məsələnin arxasında Minsk Qrupunun həmsədri olan ölkələrin Ermənistana verdiyi kart blanş dayanır. Fransa və Rusiya dövlətlərinin siyasi-hərbi rəhbərliyi, eyni zamanda orada yaşayan erməni diasporalarının nümayəndələri çox aktiv fəaliyyət göstərirlər. Bu məsələdə Ermənistana böyük dəstək verirlər. Buna görə də, məsuliyyəti sadəcə Ermənistanın boynuna atmamalıyıq. Bütün bunların yaşanmasında Minsk Qrupunun üzərinə də böyük məsuliyyət düşür".

**Aysel Məmmədova**

## Gəncə hücumu Ermənistanın anti-insani, faşist simasını ifşa etdi

***Moskvada humanitar atəşkəsin imzalanmasından sonra Ermənistanın razılaşmanı dərhal pozması, diversiya qrupları ilə hücumlar təşkil etməsi, yaşayış məntəqələrini bombalaması bu ölkənin təcavüzkar mahiyyətini bir daha ortaya qoydu.***

Atəşkəs razılaşmasını kobud şəkildə pozan Ermənistanın Gəncəyə raket zərbəsi endirməsi, günahsız uşaqları, qadınları, yaşlıları qətlə yetirməsi, yaralaması bir daha göstərdi ki, Paşinyan rejimi heç bir halda sülhün, atəşkəsin tərəfdarı deyil.

Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Gəncəyə raket hücumu Ermənistanın hərbi-siyasi rəhbərliyinin anti-insani, faşist simasını ifşa etdi və bütün dünyaya göstərdi. Bir daha sübut olundu ki, Ermənistanın əsas hədəfi yaşayış məntəqələri və dinc əhalidir: "Oktyabrın 9-da Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş ikigünlük atəşkəs humanitar xarakter daşıyırdı və bu, hər iki tərəfə həlak olmuş hərbçilərin cəsədlərini təhvil vermək imkanı yaradırdı. Bu, eyni zamanda, Ermənistana mövcud reallığa adekvat addımlar atmaq, iddialarından geri çəkilmək, işğal siyasətinə son qoymaq, münaqişənin beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində real addımlar atmaq üçün son şans idi. Ermənistan üçün imkan idi ki, daha ağır zərbələr almaqdan qaçsın, işğalçılıq siyasətindən əl çəksin. Lakin Paşinyan rejimi bu imkanı da əlindən buraxdı və təcavüzkarlıq siyasətini davam etdirməkdə israrlı olduğunu nümayiş etdirdi", - deyən deputat bildirib ki, Ermənistanın Gəncədə çoxmənzilli binanı raket atəşinə tutması işğalçı ölkənin dövlət səviyyəsində terror siyasəti yürütməsinin əyani təsdiqidir. Bu hücumlar, mülki əhalinin hədəfə alınması, sözün əsl mənasında, müharibə cinayətləridir və Ermənistan artıq qlobal bir problemə çevrildiyini nümayiş etdirir.



Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılaşmasından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarlığın, Ermənistanın hərbi-siyasi rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının növbəti bariz göstəricisidir. "Beynəlxalq təşkilatlar, xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Ermənistanın məsuliyyətsiz və cinayət xarakterli əməllərinə susmamalı, münasibət bildirməli, işğalçı ölkəyə təzyiq etməlidir. Eyni zamanda, Paşinyan rejimi humanitar atəşkəsin əsas təşəbbüskarı Rusiyanın qlobal sülhyaratma fəaliyyətinə ləkə gətirdiyinə, onun vasitəçilik imicinə xələl vurduğuna görə Moskva Ermənistandan hesabat tələb etməlidir. Moskva da artıq anlayır ki, bundan sonra Ermənistanın sülhə, atəşkəsə riayət edəcəyi sadəcə xülyadır. Elə bu səbəbdən də təcavüzkar ölkənin cəzalandırılması qaçılmaz reallığa çevrilir", - deyə deputat qeyd edib.

# Qarabağ problemi: fakt, səbəb və nəticə

## Ermənistanın işğalçı siyasətinə son qoymağın vaxtı gəlib çatdı

***Son günlər Qafqazda yaşanan proseslər dünyanın diqqət mərkəzindədir. Qarabağ münaqişəsi ətrafında davam edən danışıqlarda Yerevanın 30 ilə yaxın qeyri-konstruktiv mövqe tutaraq vaxt uzatmağa çalışması, sonda isə Ermənistan baş nazirinin "Qarabağ Ermənistanındır" deyə bəyanat verərək, sülh danışıqlarına nöqtə qoyması Bakının səbr kasasını daşırdı. Artıq problemin həlli üçün yeganə yol qalmışdı- işğal olunmuş Azərbaycan ərazilərinin güc yolu ilə azad olunması. Azərbaycan məcburən bu yola əl atdı və ordu qısa müddətdə Qarabağda xeyli ərazini işğalçı ordudan təmizlədi...***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

### Qarabağ: problemin həllindəki suallar

Azərbaycan diplomatiyasının son 25 ildəki gərgin işi nəticəsində Ermənistanın işğalçı olduğu və Azərbaycan ərazisinin 20 %-ni zəbt etdiyi həqiqəti dünya birliyi tərəfindən təsdiq, rəsmi Yerevan tərəfindən isə etiraf olunub.

Bəs regionun ən zəif, ən gücsüz, ən çətin vəziyyətdə olan ölkəsinin- Ermənistanın işğalçı siyasəti hardan qaynaqlanır? Qarabağ probleminin sülh yolu ilə həllinə mane olan səbəblər hansılardır? Ümumiyyətlə, problem tək Qarabağın Ermənistan tərəfindən işğalı ilə bağlıdırmı? Son 2 əsrdə Azərbaycan xalqına qarşı onlarla soyqırım aktı həyata keçirən, yüzminlərlə insanı vəhçicəsinə qətlə yetirən, saysız terror aktları törədən, 1 milyon azərbaycanlını öz tarixi torpaqlarından deportasiya edən ermənilər bu qədər gücü hardan alıblar? Həqiqətənmi, tarixən qorxaq, satqın, saxtakar tayfa kimi tanınan bu vəhşi qəbilə bu qədər böyük prosesi həyata keçirmək gücündə olub?

Suallar çoxdur. Düşünürük ki, problemin yaranma səbəbləri və nəticələrinə nəzər salmadan fikir yürütmək düzgün olmazdı. Çünki ermənilərin dünyada saldıqları hay-küyün bazasında duran saxtakarlıqları ortaya qoymaq vacibdir. Ona görə də bu problemin aktuallaşdığı bir vaxtda biz bir daha 30 il sürən erməni işğal, soyqırım və terror kampaniyasının səbəblərini, nəticələrini və perspektivini analiz etməyə çalışacağıq.

### Universal maşa

Ermənilərin iç üzünün tam çılpaqlığı ilə açılması üçün cəmi bircə əsr qədər geriyə qayıtmaq kifayət edər. Baxmayaraq ki, ermənilər indi yaşadıqları ərazilərin tarixi sahibləri olan azərbaycanlılara qarşı xəyanət və təcavüz prosesini əsrlər öncə başlayıblar. Bu haqda Azərbaycan alimləri tərəfindən tarixi faktlara və sənədlərə əsaslanan kifayət qədər sanballı əsərlər yazıldığından, burada təkrara ehtiyac görmürük.

Riyakar Avropa mətbuatı hələ XIX əsrin sonundan "erməni problemini" öz sevimli mövzusuna çevirmişdi. Şöhrətpərəst, şəhər tülküsü olan ermənilər özlərini himayə edən mətbuatın təbliğatından daha da çaşdılar. Onlar Qərb ölkələrinin əsrlərlə dağıtmaq istədiyi türk dövlətlərinin ərazilərində özlərinə "dövlət" yaratmaq iddiasına düşdülər.

Nə üçün belə oldu? Ona görə ki, "yazıq ermənilər"in problemi məxsusi erməni məsələsi deyildi, bu, bəzi böyük dövlətlərin yeni ərazilər və müstəmləkələr arzusundan qaynaqlanan proses idi. Böyük dövlətlərə Yaxın Şərqdə və Qafqazda öz təsir gücünü artırmaq üçün forpost funksiyası yerinə yetirəcək oyuncaq "dövlət" lazım idi. Bu arzular güclənəndə, bölgəyə başqa təsir "rıçaqı" qalmayanda "erməni məsələsi" ortaya atıldı. Ermənilərin problemi ümumiyyətlə, fövqəldövlətlərin xarici siyasətində yoxdur. Ancaq erməni amilindən öz məqsədləri üçün istifadə etmək niyyətləri var. Ona görə də, erməni probleminin hər bir aktivləşməsi böyük dövlətlərinin regiona ekspansiyası və Qafqazda qarşılıqlı rəqabəti ilə bağlıdır.

### Ermənizm genetik xəstəliyi

Bakı nefti hesabına varlanıb siyasətə qoşulan ermənilər Birinci Dünya Müharibəsindən sonra tarixi Azərbaycan torpaqları üzərində dövlət qurdu. Bundan sonra ermənilər azərbaycanlılara qarşı terrora, soyqırımlara qurşandılar. Həm 1918-ci ildə, həm də ötən əsrin sonlarında Qarabağda öz kinli və qanlı əməllərini davam etdirən ermənilər xalqımıza qarşı onlarla soyrıqım aktı həyata keçiriblər. Yüz minlərlə azərbaycanlı vəhşicəsinə öldürülüb. Xocalıdakı dəhşətləri görəndə bunu edənlərin insan olduğuna şübhə edirsən. Bu, tarixdə görünməmiş bir vəhşilikdir. Azərbaycanın erməni təcavüzünə məruz qalmış torpaqlarından olan 1 milyon məcburi köçkünün öz doğma yurdlarından didərgin düşüb.

Ermənilər Türkiyəyə də böyük zərbə vurublar. PKK sıralarında çox sayda ermənininin türk xalqına qarşı terror apardığını, beynəlxalq səviyyələrdə erməni lobbisinin Türkiyəni soyqırımı tanımağa və böyük təzminat ödəməyə məcbur etməyə çalışması, Türkiyəyə qarşı ərazi iddiası kimi əməllərin sayı-hesab yoxdur. Ötən əsrdə onlarla türk diplomatına terror edilməsini, Osmanlı zamanında, öz vətənlərinə- Türkiyəyə etdikləri xəyanəti, hazırda bütün cəbhələrdə- (informasiya, diplomatik, hərbi və s) həyata keçirdiyi düşmənçilik siyasətini xatırlamaq kifayətdir.

Erməni ideoloqları erməni xalqına onların dünyanın ən qədim xalqı olduğunu və bütün ətraf region dövlətlərinin onların ərazisində qurulduğunu, ermənilərə qarşı guya böyük soyqırım həyata keçirildiyini aşılayıb və nəticədə ortada xalq əvəzinə xəstə bir kütlə əmələ gəlib. Bütün dünya mədəniyyətini ermənilərin yaratdığına, ilk insanın, Nuh peyhğəmbərin, hətta Tanrının belə erməni olduğuna milyonlarla ermənini inandırıblar. Bu xəstliyin dı artlq tibbi ədəbiyyatda "ermənizm" sindromu kimi qəbul olunur.

### Qarabağın işğalı necə baş verdi?

Sovet İttifaqından Ermənistan müharibəyə hazırlıqlı, Azərbaycan isə hazırlıqsız çıxmışdı. Xarici ölkələrdən də xeyli silah texnika verilən erməni terror qruplaşmaları orduya malik olmayan Azərbaycanın Qarabağ bölgəsini işğal edə bildi. Ermənilər Azərbaycan ərazisindən 20 faiz, başqa sözlə 15 000 km2 ərazi tutdu (Ermənistanın yarısı qədər).

Burada əlbəttə, Azərbaycandakı siyasi çəkişmələri, hakimiyyət davasını və bu fonda da milli birliyin dağılması və ümumi düşmənə qarşı dövlətlə xalqın birgə mübarizəsini təşkil etməyin mümkün olmaması böyük rol oynadı.

1994-cü ilin mayında atəşkəs elan edildi. Həmin vaxtdan Ermənistanın bütün xarici siyasəti bir məqsədə- Azərbaycan Respublikasından işğal etdiyi 15 min kvadrat kilometrlik ərazini beynəlxalq hüquq pərdəsi arxasında özünə birləşdirməyə və dünya dövlətlərinin bu ilhaqı tanımasına can atır.

Azərbaycan Prezidenti Heydər Əliyev qəti bir xarici siyasət aparırdı və Ermənistanla münaqişənin ancaq bir şərtlə- Azərbaycanın ərazi bütövlüyü şərti ilə həll edilə biləcəyini elan etmişdi. Ermənilər bəzi böyük dövlətlərin himayəsindən istifadə edib nə qədər fitnəkarlıq, hiyləgərlik etsə də, onların təşəbbüsləri Azərbaycanın beynəlxalq hüquqa söykənən xarici siyacətinin qranit bünövrəsinə dəyib çilik-çilik olurdu. Bütün dünya da bilirdi: Azərbaycan öz ərazilərinin işğalı ilə hec zaman barışmayacaq və özünün BMT tərəfindən tanınan ərazisindən bir qarış da ermənilərə verməyəcək. 30 ildir ikili standartlarla işləyən dünya siyasətçiləri bizim dövlətimizi zorla Ermənistanla dialoq aparmağa məcbur edirlər. Bu həmin demokratlardır ki, o vaxt da, indi də öz kosmik peykləri vasitəsi ilə Qarabağdaki hərbi əməliyyatları izləyir, Azərbaycan ordusunun hər addımını ermənilərə xəbər verirdilər.

### Regionda güc balansı: kimin xeyrinədir?

Azərbaycan iqtisadi və hərbi qüdrətini artırandan sonra bölgədə fəal siyasət aparmağa başladı. Böyük beynəlxalq və regional iqtisadi, xüsusən də enerji və nəqliyyat layihələri reallaşdırıldı. Beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq quruldu. Getdikdə daha çox ölkə və beynəlxalq təşkilat ölkəmizi dəstəkləməyə başladılar.

İndiki vəziyyətdə Ermənistan ağır iqtisadi, sosial böhan keçirir. Bütün regional layihələrdən kənarda qalan, heç bir iqtisadi potensialı olmayan, xarici yardımlar hesabına dolanan bir ölkədə artıq bəziləri hələ əməliyyatlar başlamamışdan əvvəl anlamağa başlamışdılar ki, belə siyasətlə məhv olacaqlar. Qarabağda Azərbaycan ordusunun anti-terror əməliyyatları başladıqdan və qisa müddətdə Ermənistan ordusu və terrorçu qruplar darmadağın ediıdikdən sonra Azərbaycan işğalçı ölkəni bütün cəbhələrdə dalana dirəyib. Beynəlxalq təşkilatların və böyük dövlətlərin danışıqlara çağırmasından sonra rəsmi Bakı təklifi qəbul etdi və XİN rəhbərləri səviyyəsində Moskvada keçirilən görüşdə Ermənistana sonuncu şans verdi. Lakin cəsədlərin döyüş meydanından çıxarılması və əsirlərin dəyişdirilməsi üçün razılaşılan müvəqqəti atəşkəsə də riayət etməyən Ermənistan ordusu cavab zərbələri ilə darmadağın edildi.

Ermənistan ordusu döyüş cəbhəsində sarsıdıcı məğlubiyyətə uğradıldığından, Yerevan Azərbaycan şəhərlərini bombardman etməklə mülki əhaliyə qarşı açıq dövlət terroruna start verdi. Onlarla mülki şəxs öldürüldü, lakin Azərbaycan ordusu bu terrora qarşı ermənilər kimi vəhşi və rəzil hərəkətlə cavab vermədi, Ermənistan ərazisinə zərbə endirilmədi, yalnız Qarabağdakı Ermənistan işğalçı ordfusunun və PKK-dan gətirilmiş muzdlu terrorçu dəstələrə ağır zərbələr endirdi. Hazırda bu proses davam edir və ərazilərimiz azad olunur.

Azərbaycan münaqişəni sülh yolu ilə həll etmək istəyir. Lakin Qafqazda ən qüdtrətli orduya malik Azərbaycan öz torpaqlarını güc yolu ilə azad etməyə qadirdir. Artıq bu proses başlayıb və uğurla davam edir.

Belə bir məqamda Azərbaycan güclü xarici təzyiqlərə baxmayaraq geri çəkilmir. Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq hüquqa əsaslanan şərtləri çox sadə və konkretdir- Ermənistan işğal etdiyi ərazilərdən çıxmalı, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməli, azərbaycanlılar öz doğma yurdlarına qayıtmalıdır. Əgər Ermənistan sülh yolu ilə buna razı olmasa, onda Azərbaycan ordusu bütün bu şərtləri güc yolu ilə, həm də çox qısa müddətə həll edəcək. Buna artıq heç kimin şübhəsi qalmayıb- nə dünyada, nə də ölkəmizdə.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

**Son səhifə**

14 oktyabr

## Ronaldo koronavirusa yoluxdu!



İtaliyanın "Yuventus" futbol klubunun və Portuqaliya millisinin futbolçusu Kriştiano Ronaldo koronavirusa yoluxub. Portuqaliya Futbol Federasiyasının rəsmi saytında bu barədə rəsmi məlumat yerləşdirilib. Məlumata görə portuqaliyalı ulduz futbolçunun testi müsbət nəticə verib. Təcrübəli forvard karantinə alınıb. Beləliklə, Ronaldo oktyabrın 14-də UEFA Millətlər Liqası çərçivəsində İsveçdə keçiriləcək matçı buraxacaq.

## Yeni mövsümün ilk "El-Klassiko"su nə zaman olacaq?




Futbol üzrə İspaniya çempionatının VII turunda keçiriləcək "Barselona"-"Real Madrid" matçının vaxtı müəyyənləşib. AZƏRTAC xəbər verir ki, "El-Klassiko" oktyabrın 24-də baş tutacaq. Qarşılaşma Bakı vaxtı ilə saat 18:00-da başlayacaq. Qeyd edək ki, 5 turdan sonra "Real" 10 xalla 1-ci, "Barselona" 7 xalla 6-cı yerdə qərarlaşıb. Madrid təmsilçisi 4, kataloniyalılar isə 3 matç keçirib.

## Tarixin ən yaxşı 20 yarımmüdafiəçisinin adı açıqlanıb

Fransanın "France Football" nəşri tarixin ən yaxşı 20 yarımmüdafiəçisinin adını açıqlayıb. Məlumatda deyilir ki, ən yaxşı yarımmüdafiəçilərin siyahısında Yozef Bozik (Macarıstan), Jerson, Didi, Paulo Falkao (hər üçü Braziliya), Serxio Busqets, Xosep Qvardiola, Xavi Hernandes, Luis Suarez Miramontes, Xavi Alonso (hamısı İspaniya), Lotar Matteus, Bernd Şuster (hər ikisi Almaniya), Yosef Masopust (Çexiya), Stiven Cerrard (İngiltərə), Frank Raykard, Yohan Neeskens, Klarens Zeedorf (hər üçü Hollandiya), Andrea Pirlo, Marko Tardelli (hər ikisi İtaliya), Fernando Redondo (Argentina) və Jan Tiqana (Fransa) yer alıblar.



Siyahıda hazırda yaşıl meydanlara çıxış edən yeganə futbolçu "Barselona"nın yarımmüdafiəçisi Serxio Busqetsdir.

## Dünyada koronavirusa yoluxanların sayı 38 milyon nəfəri ötdü

***Dünyada koronavirus infeksiyasına yoluxanların sayı 38 milyon nəfəri ötüb. Pandemiyanın statistikasını aparan Worldometer saytı xəbər verir ki, oktyabrın 12-də dünyada 275 min 849 nəfər koronavirusa yoluxub, 3 min 758 nəfər isə həyatını itirib.***




Saytın son məlumatına əsasən, indiyədək dünyada koronavirus infeksiyasına 38 milyon 121 min 613 yoluxma və 1 milyon 86 min 640 ölüm faktı qeydə alınıb. Eyni zamanda, 28 milyon 646 min 757 nəfər COVID-19 xəstəliyindən sağalıb, müalicəsi davam edən 8 milyon 388 min xəstədən 69 mininin vəziyyəti ağır qiymətləndirilir.

ABŞ-da COVID-19 infeksiyasına yoluxanların sayı 8 milyon 38 min 543 nəfərə çatıb. Bu göstəriciyə görə sonrakı yeri Hindistan tutur - 7 milyon 179 min nəfər. Braziliyada 5 milyon 103 min, Rusiyada 1 milyon 326 min, Kolumbiyada 919 min nəfər koronavirusa yoluxub.

Birləşmiş Ştatlar COVID-19 xəstəliyindən ölənlərin sayına görə də dünya lideridir - 220 min 27 nəfər. İlk beşliyə daxil olan Braziliyada 150 min 709, Hindistanda 109 min 923, Meksikada 83 min 945, Birləşmiş Krallıqda isə 42 min 875 nəfər koronavirus infeksiyası səbəbindən həyatını itirib. Mart ayının 11-də Ümumdünya Səhiyyə Təşkilatı yeni koronavirus infeksiyasının yayılmasını pandemiya elan edib.

## Yasamalda quldurluqla məşğul olan keçmiş məhkum tutulub

***Yasamal rayonunda quldurluqla məşğul olan keçmiş məhkum tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Yasamal Rayon Polis İdarəsinin 27-ci polis bölməsinə oktyabrın 10-da saat 6 radələrində Z.Əhmədbəyov küçəsində bir nəfərin Bakı şəhər sakinləri N.Abdullayevin baş nahiyəsinə küt alətlə xəsarət yetirməsi, arvadına isə güc tətbiq edərək bıçaqla hədələyib 20 manat pulunu və mobil telefonunu alması barədə məlumat daxil olub.***



Hadisədən sonra N.Abdullayevə və arvadına xəstəxanada ilkin tibbi yardım göstərilib. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş E.Abışov müəyyən edilərək saxlanılıb. Faktla bağlı Yasamal Rayon Polis İdarəsində araşdırmalar davam edir.

## Qubada mənzildən pul və xeyli sayda qızıl oğurlanıb



Qubada bir mənzildən pul və xeyli sayda qızıl-zinət əşyaları oğurlanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Quba Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 11-də rayon ərazisindəki evlərin birindən 2100 manat, 20 ABŞ dolları pul və 10 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş E.Cəlilov saxlanılıb. Faktla bağlı Quba Rayon Polis Şöbəsində araşdırmalar davam edir.

## Nebahat Çehredən Azərbaycana dəstək

Türkiyəli aktrisa Nebahat Çehre Azərbaycanla bağlı paylaşım edib. SİA-nın məlumatına görə, o, "İnstagram" hesabında Azərbaycan və Türkiyə bayraqlarının əks edildiyi foto yayımlayıb. Çehre şəklə "Yanındayıq Azərbaycan" qısa şərhini yazıb. O, eyni paylaşımı daha sonra "hekayə" bölümündə də yerləşdirib.



**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600